# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov Astanada Beynəlxalq Forumda iştirak edir



2

# Regional sabitlik və inkişaf!



3

**Prezident İlham Əliyev: "Bu gün bizim iqtisadiyyat sağlam iqtisadiyyatdır"**

SƏS
№ 205 (7373)
7 noyabr 2025-ci il.
Qiymәti 60 qәpik

# Yeni nüvə yarışı?

*ABŞ, Rusiya və Ancelina Coli*



11

**Keyfiyyətsiz geyimlərin artmasının əsas səbəbi NƏDİR?**



7

**Vətənə daş, torpağa qardaş, ölkəyə vətəndaş olduq!**



8

**Universitetlərdə hansı yeni ixtisaslar yaradılmalıdır?**



16

**Azərbaycan derbisi bu hakimə tapşırıldı!**



16

**Məlumat verən xanımı dinləyin, heç olmasa...**



12



# Azərbaycan-NATO əməkdaşlığı uğurla inkişaf edir

## *Prezident İlham Əliyev NATO nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 6-da NATO nümayəndə heyətini qəbul edib. Nümayəndə heyətinə Türkiyə, Yunanıstan, Macarıstan, Monteneqro, Niderland, Şimali Makedoniya, Norveç, Slovakiya, Sloveniya, İsveç, Çex, Portuqaliya, İspaniyanın NATO-dakı daimi nümayəndələri, həmçinin ABŞ və Fransanın NATO-dakı daimi nümayəndələrinin müavinləri daxildir.***

AZƏRTAC xəbər verir ki, NATO nümayəndə heyətinin Prezident İlham Əliyev tərəfindən qəbul olunmasının əhəmiyyətini vurğulayan Türkiyənin alyansdakı daimi nümayəndəsi Basat Öztürk dövlətimizin başçısının NATO mənzil-qərargahına səfərlərini məmnunluqla xatırladı.

O, Azərbaycanın hazırkı inkişafının təməlinin Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu deyərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin bütün sahələrdə daha da gücləndiyini vurğuladı. Qonaqlar Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdılar.

Təbriklərə görə təşəkkürünü bildirən dövlətimizin başçısı bu məsələdə ABŞ Prezidenti Donald Trampın xüsusi rolunu qeyd etdi və əldə olunmuş razılaşmaların regionun inkişafı üçün geniş imkanlar açdığını dedi.

Prezident İlham Əliyev də öz növbəsində NATO mənzil-qərargahına səfərlərini xatırladaraq qeyd etdi ki, Əfqanıstandakı əməliyyatlara dəstək Azərbaycan-NATO əməkdaşlığının vacib hissəsi olsa da, ölkəmizlə alyans arasında regional inkişaf, enerji təhlükəsizliyi və digər istiqamətlər üzrə əməkdaşlıq da gündəmdədir.

Dövlətimizin başçısı Azərbaycan Ordusunun NATO standartlarına uyğunlaşdırıldığını və bu çərçivədə Türkiyə ordusu ilə sıx əməkdaşlığı vurğuladı. Bu xüsusda ölkəmizlə alyans arasında əlaqələrin genişləndirilməsinin roluna toxundu.

Prezident İlham Əliyev Azərbaycanın ötən əsrin əvvəllərində müstəqilliyini qazandıqdan bəri əsas məqsədimizə çatdığımızı - torpaqlarımızın işğaldan azad olunduğunu vurğulayaraq qeyd etdi ki, ordumuzun müasirləşdirilməsi prosesi bundan sonra da davam edəcək. Dövlətimizin başçısı NATO nümayəndə heyətinin ölkəmizə səfərinin uğurlu olacağına ümidvarlığını bildirdi.

Söhbət zamanı Azərbaycanın NATO-nun dəyərli tərəfdaşı olduğu vurğulandı, Silahlı Qüvvələrimizin Əfqanıstanda "Qətiyyətli dəstək" əməliyyatlarındakı xidmətləri, bu xüsusda ölkəmizin regional nəqliyyat və logistika mərkəzi kimi töhfələri yüksək qiymətləndirildi, sülhməramlılarımızın Əfqanıstanı sonuncu tərk edən hərbi qulluqçular olduğu qeyd edildi.

Azərbaycanın alyans üzvləri ilə sıx dostluq və strateji tərəfdaşlıq əlaqələrinə toxunuldu, NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramı çərçivəsində ölkəmizin 1994-cü ildən alyansın proqramlarında fəal iştirak etdiyi bildirildi.

Görüşdə Azərbaycan-NATO əməkdaşlığının perspektivləri müzakirə olundu, regional və qlobal məsələlərə dair fikir mübadiləsi aparıldı.

# Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov Astanada Beynəlxalq Forumda iştirak edir






***2025-ci ilin 6-7 noyabr tarixlərində Qazaxıstanın paytaxtı Astana şəhərində "Milli statistika sistemlərinin rəqəmsal transformasiyası" mövzusunda Beynəlxalq Forum və Forum çərçivəsində Qazaxıstanın dövlət statistika qurumunun yaradılmasının 105 illiyi mərasimi keçirilir. Tədbirdə ölkəmizi Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov təmsil edir.***

Forum zamanı innovativ informasiya texnologiyalarının tətbiqi (süni intellekt, maşın öyrənməsi və s.), məlumatların idarə olunmasına yeni yanaşmalar, onların təhlükəsizliyi və məxfiliyinin təmin edilməsi də daxil olmaqla rəsmi statistikanın modernizasiyası, eləcə də kadr potensialının möhkəmləndirilməsi və təkmilləşdirilməsi, texniki infrastrukturun və statistik proseslərin transformasiyasının zəruriliyi, artan çağırışların birgə həlli yolları və istifadəçi ehtiyaclarının ödənilməsi imkanlarına dair aktual məsələlərlə bağlı müzakirələr aparılır. Tədbir milli statistika sistemlərinin rəqəmsal transformasiyası, məlumatların keyfiyyəti və müasir dünyada onların artan keyfiyyəti, rəsmi statistikada irihəcmli məlumatlardan istifadə potensialı, dövlət idarəetməsində süni intellekt texnologiyalarından istifadə, istifadəçi və məlumat istehsalçıları ilə kommunikasiya mövzularında sessiyalardan ibarətdir.

Tədbirin 1-ci günü Dövlət Statistika Komitəsinin Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinin müdiri Toğrul Əcəlov təqdimatla çıxış edərək Azərbaycanda keyfiyyətin idarə olunması sisteminin tətbiqi, metaməlumatlar və şəffaflıq, keyfiyyətə nəzarət cədvəlləri, ev təsərrüfatları büdcələri tədqiqatında və istehlak qiymətləri indeksinin hesablanmasında ilkin məlumatların keyfiyyətinin yoxlanılması, inzibati məlumatlar və onların statistik məlumatların keyfiyyətində rolu sahəsində görülmüş işlər barədə tədbir iştirakçılarına geniş məlumat verib.



# Ukrayna jurnalisti: Azərbaycanın Zəfər Günü ukraynalıları öz qələbəsinə inanmağa ruhlandırır

Azərbaycanın Zəfər Günü ukraynalıları öz qələbəsinə inanmağa ruhlandırır . Həmin vaxt, 2020-ci ildə Azərbaycan xalqı Şuşa şəhərinin işğaldan azad edilməsinə nail oldu və bu hadisə Qələbənin müjdəçisinə çevrildi. Bu fikirləri AZƏRTAC-ın müxbiri ilə söhbətində ukraynalı jurnalist Lesya Kesarçuk ifadə edib. O qeyd edib ki, Azərbaycan öz ərazilərinin işğaldan azad edilməsi hüququnu daim müdafiə edib.

Ukraynalı jurnalist əlavə edib: "Ukrayna həmin vaxt Azərbaycan xalqı ilə həmrəy olub və bu, indi də davam edir. Azərbaycan otuz il ərzində öz suverenliyinin bərpa ediləcəyi günə hazırlaşırdı. Ukrayna və Azərbaycanın dramatik hadisələri oxşardır və tarixin qiymətli dərsinə çevrilir". Lesya Kesarçuk bildirib ki, Ukrayna xalqı göstərilən dəstəyə görə Azərbaycana minnətdardır.

# Regional sabitlik və inkişaf!

## Prezident İlham Əliyev: "Bu gün bizim iqtisadiyyat sağlam iqtisadiyyatdır"

***Ulu Öndərimiz Heydər Əliyevin gördüyü möhtəşəm işləri qətiyyət və prinsipiallıqla davam etdirərək Azərbaycanın iqtisadi, siyasi, hərbi qüdrətini, nüfuzunu daim artıraraq, xalqın güzəranını və rifahını dönmədən yüksəldərək, ərazi bütövlüyümüzü təmin edərək və suverenliyimizə imza ataraq xalqın alternativsiz Liderinə çevrilən Azərbaycan Prezidenti İlham Əliyev uzaqgörən siyasəti ilə regionda yaranmış yeni reallıqlar fonunda , qətiyyətli mövqe nümayiş etdirir.***

Son iyirmi iki ildə müasir dövrün qlobal çağırışlarına dəstək verən müstəqil Azərbaycanın yürütdüyü siyasət, ölkəmizin etibarlı və strateji tərəfdaş kimi, nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. Müstəqil dövlətimizdə kənd təsərrüfatında, kosmik sənayedə, hərbi sənayedə, səhiyyədə, təhsildə və s. əldə olunan uğurlar, eləcə də, beynəlxalq səviyyədə qurduğu münasibətlər, davamlı inkişaf əldə olunan nailiyyətlərdir. Müstəqil Azərbaycanın yürütdüyü siyasət ölkəmizin etibarlı və strateji tərəfdaş kimi nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib.

Bu gün, məhz uğurlu iqtisadi inkişaf strategiyasının nəticəsidir ki, Azərbaycan modeli dünyada tanınır və qəbul edilir. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində bildirdiyi kimi, bizim iqtisadi göstəricilərimiz çox müsbətdir. Düzdür, ümumi daxili məhsul çox artmır. Bunun da əsas səbəbi neft hasilatının obyektiv səbəblərə görə aşağı düşməsidir: "Ancaq bu gün iqtisadiyyatımızın aparıcı təkanverici qüvvəsi qeyri-neft sektordur. Bu, bizim ümumi iqtisadiyyatımızın əksəriyyətini təşkil edir. Bu gün dünyanın aparıcı reytinq agentlikləri - iki aparıcı beynəlxalq reytinq agentliyi bizim kredit reytinqimizi qaldırıb və bunu investisiya reytinqinə uyğun səviyyədə artırıb. Bu, əlbəttə ki, ölkəmizdə gedən iqtisadi islahatların təzahürüdür. Çünki bu gün bizim iqtisadiyyat sağlam iqtisadiyyatdır. Biz heç kimdən asılı deyilik. İqtisadi müstəqillik təbii olaraq siyasi müstəqilliyi də gücləndirir. Bizim xarici borcumuz çox aşağı səviyyədədir. Sirr deyil ki, bir çox inkişaf etmiş ölkələrdə xarici borc o ölkələrin ümumi daxili məhsulunun yüz faizini, bəlkə də daha çox təşkil edir. Bizdə isə bu, cəmi 6 faizdən bir qədər çoxdur. Bizim valyuta ehtiyatlarımız ildən-ilə artır və bu il də əhəmiyyətli dərəcədə artıb, 80 milyard dolları ötüb. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan 16 dəfə çoxdur. Biz əgər istəsək, xarici borcumuzu bir neçə ay ərzində sıfırlaya bilərik." Bütün bu və ya digər amillər müstəqillik dövründə Azərbaycanın əldə etdiyi nailiyyətlər - tarixi gerçəkliklərdir. Müasir Azərbaycanda nəhəng enerji layihələri, ölkənin hər yerində abadlaşma, müasirləşmə, ölkənin dünyada tanınması və milli maraqlara xidmət edən çoxsaylı tədbirlər gerçəkləşib. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə qəbul olunması onun dünya miqyasında artan nüfuzundan



və uğurlu xarici siyasətindən xəbər vermiş oldu. Dünyanın 155 ölkəsi Azərbaycana səs verdi. Əlbəttə, xalqımız görülən işləri, əldə olunan nailiyyətləri hər zaman dəyərləndirir və ən yüksək səviyyədə qiymətləndirir.



### "AZƏRBAYCAN DÜNYA MİQYASINDA BÖYÜK RƏĞBƏT QAZANMIŞ BİR ÖLKƏDİR"

Azərbaycanda bütün sahələrdə əldə olunan nailiyyətlərin kökündə düşünülmüş siyasət, möhkəm siyasi iradə və xalq-dövlət birliyinin real əsasları dayanır. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar Azərbaycanın dünyanın inkşaf etmiş ölkələri sırasında nüfuzu, çəkisi olan dövlətə çevirib. 2003-cü ildən bu günə qədər keçən dövr ərizində Azərbaycan sürətli inkişaf dövrünü yaşamış və dünyada analoqu olmayan iqtisadi templərlə inkişaf etmişdir. Ölkə qarşısında duran bütün vəzifələr icra edilmişdir, 2003-cü ildə və ondan sonrakı illərdə verilmiş bütün vədlər həyatda öz əksini tapmışdır. Prezident İlham Əliyevin uzaqgörən və praqmatik xarici siyasət strategiyasının nəticəsi kimi, Azərbaycan beynəlxalq münasibətlər sisteminin nüfuz və güc dairəsində sürətlə irəliləməkdədir. Bu gün Azərbaycan regionun, Avropanın və ümumilikdə, dünya ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsində xüsusi əhəmiyyət kəsb edən bir ölkəyə çevrilmişdir. Beynəlxalq təşkilatlar regiondakı bütün layihələrdə Bakının mövqeyini nəzərə alırlar. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı adlandırırlar. Təkcə onu demək kifayətdir ki, ölkəmizin iştirakı olmadan regionda heç bir strateji layihə reallaşdırılmır. Həqiqətən də, Azərbaycan son 22 ildə bütün istiqamətlər üzrə böyük uğurlara imza atıb. Ölkə başçısı İlham Əliyev çıxışlarının birində qeyd etdiyi kimi, Azərbaycan dünya miqyasında böyük rəğbət qazanmış bir ölkədir.

### HƏM MÜHARİBƏ, HƏM DƏ POSTMÜHARİBƏ DÖVRÜNDƏ HƏYATA KEÇİRDİYİ SİYASƏTİN MƏNTİQİ

Bu gün Azərbaycan yeni iqtisadi və sosial çağırışların, nüfuzlu beynəlxalq qurumların tədbirlərinin keçirilməsi üçün əsas məkan kimi tanınır, dünyaya özünü demokratik ənənələrə sadiq, hüquqi və sosial dövlət kimi təqdim edir. Ölkəmizin bütün sahələrdə böyük uğurlar qazanması, maliyyə imkanlarının artması, ölkəmizin transmilli layihələrin təşəbbüskarı və əsas iştirakçısı kimi çıxış etməsi, müasir tələblərə cavab verən infrastrukturun yaradılması və s. Azərbaycanın beynəlxalq aləmdəki mövqelərini getdikcə daha da möhkəmləndirir. Azərbaycan Prezidentinin əməli fəaliyyətinin, iradəsinin nəticəsidir ki, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib, qlobal əhəmiyyətli iqtisadi zonalar yaradılıb. Cənub Qaz Dəhlizinin, TANAP layihəsinin istifadəyə verilməsi uğurlu hadisələr sırasındadır. Cənab Prezidentinin çıxışlarının birində vurğuladığı kimi, bunlar dünyada da çox böyük əks-səda yaradan layihələrdir. Azərbaycanın təşəbbüsü ilə bölgədə, Avrasiya məkanında həyata keçirilən layihələr önəm daşıyır. Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Neft-qaz sahəsində qazandığı uğurları davam etdirən ölkəmiz Trans-Anadolu və Trans-Adriatik qaz kəmərlərinin çəkilməsinə start verdi. Bununla da Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan Azərbaycan Cənub Qaz Dəhlizi layihəsinin aparıcı qüvvəsi kimi çıxış etməyə başladı. Xəzərin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında yeni sazişin imzalanması ölkəmizin dünya enerji sənayesində həlledici rolu olduğunu bir daha təsdiqlədi.

### "BU GÜN ƏSAS İNVESTİSİYA LAYİHƏLƏRİNİN İSTİQAMƏTİ QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDUR"

2020-ci ildə 44 günlük Vətən müharibəsi başa çatandan sonra Azərbaycan regionda sülh gündəliyinin təşəbbüskarı olaraq Ermənistanla sülh müqaviləsinin imzalanması təklifi ilə çıxış edib. Amma Ermənistan tərəfindən buna adekvat reaksiya verilmədi. Ona görə də Azərbaycan sülh müqaviləsinin əsaslarını təşkil edən beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq 5 prinsip irəli sürüb ki, bunun əsasında da sülh müqaviləsi üzrə danışıqlar prosesinin təşəbbüskarı Azərbaycan olub. Bu 5 əsas prinsip beynəlxalq hüququn fundamental prinsipləridir və bu əsasda normallaşmaya nail olmaq mümkündür: Dövlətlərin bir-birlərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması; dövlətlərin bir-birlərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi; dövlətlərarası münasibətlərdə bir-birlərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinmək; dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması; nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulması.

Bu gün işğaldan azad olunan ərazilərdə abadlıq-quruculuq işləri aparılır. Prezident İlham Əliyev çıxışlarında dəfələrlə qeyd etmişdir ki, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Bu bölgələrin potensialı və nəzərdə tutulan bərpa və yenidənqurma işləri həqiqətən də həmin ərazilərin cənnətə çevriləcəyini deməyə tam əsas verir."Əlbəttə ki, iqtisadi və maliyyə dayanıqlılığı bizə imkan verir ki, böyük investisiya layihələrini icra edək", - deyə Prezident diqqətə çatdırıb ki, bu gün əsas investisiya layihələrinin istiqaməti Qarabağ və Şərqi Zəngəzurdur. Azad edilmiş bu torpaqlarda da dünyada misli görülməmiş işlər görülür, "Yəni, Azərbaycan ictimaiyyəti müntəzəm olaraq bu barədə məlumatlandırılır və bir çox vətəndaşlarımız artıq azad edilmiş torpaqlara gediblər. Dəfələrlə orada olublar və gedən inkişafı öz gözləri ilə görürlər. Yəni, bizim güclü iqtisadiyyatımız bizə həm əminlik verir, həm də azad edilmiş torpaqların tezliklə bərpa edilməsinə imkan verir". Azərbaycanın bugünkü reallıqlarına nəzər salaraq görmək olar ki, ölkə sözün əsl mənasında müstəqil dövlət kimi dünya xəritəsində öz yerini tuta bilib. Bütün regional məsələlərdə fəal iştirak edən Azərbaycan regional sabitlik və inkişaf amilinə çevrilib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Zəfər Gününə dost təbrikləri!




Çağdaş dünyamızda dövlət siyasətinin müasir modelini yaradan Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə Azərbaycan həyatının bütün sahələrində verdiyi vədlərin hamısının yerinə yetirilməsinə nail olmuşdur. Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyev tariximizə Zəfər gününü həkk etdi. "Nəyi nə vaxt və necə etməyi" bizi Qələbəyə apardı. Ərazi bütövlüyümüzü, milli kimliyimizi, şərəf və ləyaqətimizin bərpasını təşkil və təmin edən bir lider kimi tarixə düşdü. Beş il əvvəl Azərbaycan ordusu qızğın döyüşlərdə haqq savaşında torpaqlarımızın işğaldan azad olunması uğrunda vuruşurdu. Sentyabrın 27-də başlanan Vətən müharibəsinin ilk günündən Azərbaycan xalqı qələbə xəbərlərini eşidir və tezliklə zəferimizin qazanılacağı günün lap yaxında olduğuna inanırdı. Azərbaycan Prezidenti, Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu gücünü döyüş meydanında düşmənə göstərdi.

Azərbaycan öz torpaqlarını işğaldan azad etmək məqsədi ilə müharibəni davam etdirirdi. Hər gün torpaqlarımız geri alınırdı. Xalqımızın Ali Baş Komandan İlham Əliyev rəhbərliyi ilə Zəfərimizə inamı sonsuz idi. Həmin dövr ərizində Prezidentə ünvanlanan məktubların ardı-arası kəsilmirdi və bu məktubların hər birindən qələbə qoxusu gəlirdi. Azərbaycan bayrağının işğaldan azad olunan torpaqlarımızda ucaldılmasını hər kəsin 30 ilə yaxın bir zamanda gözlədiyi möhtəşəm hadisədir. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi bizim ölkəmiz üçün yeni dövr başlayır: "Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq".

## DOSTLUĞUN VƏ QARDAŞLIĞIN NÜMUNƏSİ

Azərbaycan Prezidenti İlham Əliyevə dünya ölkələrinin prezidentləri, təşkilatları tərəfindən edilən təbrik zəngləri, eləcə də, ünvanlanan təbrik məktubları müdrik liderin beynəlxalq aləmdəki nüfuzunun göstəricisidir. Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin Prezident İlham Əliyevə qırx dörd günlük Vətən müharibəsində Azərbaycanın Qələbəsinin beşinci ildönümü münasibətilə təbriki dövlətlərarası münasibətlərin dinamik inkşafına söykənir. Müasir dünyamızda dövlətlər arasında münasibətlərin yaranması, əməkdaşlığın möhkəmlənməsi, dünya birliyinin inkişafı sahəsində məqsədlərə birgə nail olması əsas məsələlərdən biri olaraq diqqətdədir. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində ölkəmizlə dünya dövlətləri arasında münasibətlər daha da sıxlaşır, iqtisadi, mədəni, siyasi münasibətlər müstəvisində uğurlar əldə olunur. Dünyanın bir çox ölkələri ilə yanaşı, Azərbaycanla Pakistan arasında əlaqələr də yüksələn bir xətlə inkişafdadır. Pakistan Azərbaycanın müstəqilliyini tanıyan, onunla diplomatik əlaqələr yaradan və Azərbaycanda səfirliyini açan ilk müsəlman dövlətlərindən biridir. Bakıda Pakistanın, İslamabada isə Azərbaycanın daimi nümayəndəliyi açılmışdır. Pakistan və Azərbaycan arasındakı əlaqələr siyasi, iqtisadi, təhlükəsizlik, mədəniyyət, müdafiə və digər sahələri əhatə edir. Hər iki ölkə bir-birinə sıx dostluq əlaqələri ilə bağlıdır. Hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlıq xalqlar arasında ənənəvi dostluq və qarşılıqlı etimadın təzahürüdür. İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin təbrikində "Pakistan xalqı və Hökuməti adından, eləcə də şəxsən öz adımdan Sizə ən səmimi təbriklərimizi çatdırıram. Bu tarixi gün Azərbaycanın öz suverenliyini və ərazi bütövlüyünü bərpa etmək üçün göstərdiyi cəsarətin, birliyin və sarsılmaz qətiyyətin parlaq təcəssümüdür. Bu qətiyyətli Qələbə nəticəsində sevimli Şuşa şəhəri də daxil olmaqla Azərbaycanın əzəli torpaqları azad edilib", - fikirləri diqqətə çəkilib: "Bu əlamətdar hadisə, həmçinin Ermənistanla tarixi razılaşmanın əldə edilməsini, bununla da Qafqaz regionunun davamlı sülh və yeni iqtisadi imkanlar dövrünə qədəm qoymasında Zati-alinizin dövlət xadimi kimi müstəsna xidmətlərini və uzaqgörən liderliyini yüksək qiymətləndirmək üçün yaxşı fürsətdir. Zati-aliləri, 2025-ci il noyabrın 8-də Bakıda Zəfər Günü ilə bağlı tədbirlərdə Sizinlə birlikdə iştirak etməyi səbirsizliklə gözləyirəm. Əminəm ki, səfərim xüsusilə də 2025-ci il iyulun 4-də Xankəndidə keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının XVII Zirvə görüşü zamanı əldə olunan mühüm razılıq çərçivəsində qarşılıqlı faydalı gündəliyimizi inkişaf etdirmək üçün gözəl fürsət yaradacaqdır".

Pakistan İslam Respublikasının Baş naziri bu xoş fürsətdən istifadə edərək, Pakistanın qardaş xalqlarımızın rifahı naminə əlaqələrimizi çoxşaxəli, qarşılıqlı faydalı strateji və iqtisadi tərəfdaşlıq səviyyəsinə yüksəltmək əzmində olduğunu bir daha vurğulayıb.

Pakistan həmişə Azərbaycanın yanındadır və Azərbaycana qardaş və dost ölkədir və bu münasibət qarşılıqlıdır. Ermənistanın Azərbaycana qarşı təcavüz və təxribatları, günahsız insanlara qarşı hücumları Pakistan xalqı, dövləti tərəfindən daim pislənilmişdi. Azərbaycan-Pakistan dostluğu əbədidir və sarsılmazdır. 27 sentyabrda ölkəmizdə Vətən müharibəsi başlayanda Pakistan xalqı Azərbaycana dəstək nümayiş etdirdi və bizim yanımızda olduqlarını nümayiş etdirdilər. Pakistan dövləti Azərbaycanın ədalətli mövqeyini bütün səviyyələrdə, o cümlədən beynəlxalq təşkilatlarda dəstəkləyib, ölkəmizə maddi və mənəvi dəstək olub. Təbii ki, bu münasibət dövlətlərimiz arasında əlaqələrin inkişafından, dostluq və səmimi qardaşlıq münasibətlərindən qaynaqlanır.

## ƏDALƏTİN TƏNTƏNƏSİ VƏ CƏNUBİ QAFQAZDA SÜLH, İNKİŞAF VƏ YENİDƏNQURMA SAHƏLƏRİNDƏ YENİ BİR DÖVRÜN BAŞLANMASI

ICESCO-nun Baş direktoru Səlim bin Məhəmməd əl-Malikin ünvanladığı təbrikində belə deyilir: "8 Noyabr - Zəfər Gününün beşinci ildönümü münasibətilə Zati-alinizə və Azərbaycan xalqına İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı - ICESCO adından və şəxsən öz adımdan səmimi təbriklərimi, ən xoş arzularımı çatdırmaqdan böyük şərəf duyuram. Bu tarixi hadisə təkcə Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə deyil, həm də ədalətin təntənəsi və Cənubi Qafqazda sülh, inkişaf və yenidənqurma sahələrində yeni bir dövrün başlanması ilə əlamətdardır. Ərazilərin azad edilməsi xüsusən də Azərbaycan xalqının və bütün İslam dünyasının kimliyini, mənəvi dəyərlərini təmsil edən mədəni irs sahəsində mühüm bərpa prosesinə yol açmışdır. Bu baxımdan, ICESCO-nun azad edilmiş ərazilərə son illərdə iki beynəlxalq texniki missiya göndərdiyini və onların vəziyyəti yerində qiymətləndirdiyini, işğal zamanı zərər dəymiş mədəni irsin qorunması və bərpası üçün tövsiyələr verdiyini məmnuniyyətlə xatırlayıram. Biz bu səyləri təkcə Azərbaycanın deyil, bütün dünyanın münaqişədən sonrakı bölgələrində mədəni irsin qorunması üçün bir model kimi son dərəcə əhəmiyyətli hesab edirik".

Dünya təşkilatları ilə əməkdaşlıq və dostluq münasibətlərinin inkişafı ölkəmizin xarici siyasət kursunda prioritet istiqamətlərdəndir. Müxtəlif sahələrdə qurulan əməkdaşlıq münasibətləri dövlətlər arasında qarşılıqlı anlaşmanın yaranmasına və davamlı olmasına öz təsirini göstərir. Azərbaycanın İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı olan ICESKO ilə də münasibətləri də möhkəm təmələ əsaslanır. Bakı şəhərinin 2009-cu il üçün İslamın paytaxtı, eləcə də Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması ICESKO-Azərbaycan münasibətlərini bir daha aydın göstərir. İslam həmrəyliyinin gücləndirilməsi məqsədi ilə Azərbaycan dövləti ardıcıl olaraq siyasət yürüdür. Bildiyimiz kimi, Azərbaycan 2017-ci ildə "İslam Həmrəyliyi Oyunları"nı qəbul etdi, Ölkəmizdə Prezident İlham Əliyevin Sərəncamı ilə "İslam Həmrəyliyi İli" elan olundu. Bu, islam ölkələrinin birliyinə verilən ən böyük töhfə oldu. Bildiyimiz kimi, İslam Konfransı Təşkilatının üzvü və ya müşahidəçisi olmayan ölkə ICESCO-nun üzvlüyünə iddia edə bilməz. Bu baxımdan müstəqil Azərbaycan "İslam dünyasının BMT - si" adlandırılan İslam Əməkdaşlıq Təşkilatın da fəal üzvüdür. "Qarabağa hər səfərim zamanı oradakı sürətli dəyişiklikləri böyük heyranlıqla izləmişəm. Şəhər və kəndlərin yenidən qurulması, mədəni və dini abidələrin, təhsil müəssisələrinin bərpası və ictimai həyatın dirçəlişi bunun bariz sübutudur. Bu mühüm nailiyyətlər Sizin uzaqgörən liderliyinizin və Azərbaycanın daha firavan, daha sabit gələcəyi ilə bağlı əzminizin göstəricisidir. Zati-aliləri, bu şanlı Zəfər bayramı münasibətilə Sizi bir daha səmimi-qəlbdən təbrik edir, müdrik rəhbərliyinizlə Azərbaycan Respublikasına davamlı sülh, tərəqqi və firavanlıq arzulayıram". Bu fikirlər ICESCO-nun Baş direktoru Səlim bin Məhəmməd əl-Malikin Azərbaycan Prezidentinə ünvaladığı təbrikində yer alıb.

## REGİONDA SÜLH, QARŞILIQLI ANLAŞMA VƏ SABİTLİYİN MÖHKƏMLƏNMƏSİ ÜÇÜN ƏSASLI ZƏMİN

Dost və qardaş ölkələr sırasında Azərbaycan Prezidentinə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevdən Zəfər günü münasibəti ilə ünvanlanan təbrik də maraq doğurur. "Dəyərli qardaşım. Ölkənizin şanlı bayramı - Zəfər Günü münasibətilə Sizi - əziz qardaşımı və bütün Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram", - deyə fikirlərini ifadə edib: "Beş il əvvəl doğma Vətəninin əsl fədaisi və sadiq oğlu, görkəmli dövlət və siyasət xadimi olan Sizin kimi müdrik rəhbərin qətiyyəti və cəsarəti sayəsində ölkənizin ərazi bütövlüyü bərpa edilmiş, tarixi ədalət təmin olunmuşdur. Bu möhtəşəm hadisə təkcə Azərbaycanın gücünü və böyük potensialını bütün dünyaya aydın şəkildə nümayiş etdirmədi, həm də regionda sülh, qarşılıqlı anlaşma və sabitliyin möhkəmlənməsi üçün əsaslı zəmin yaratdı. Bu məqamda Sizin Cənubi Qafqazda əmin-amanlığın və davamlı inkişafın təmin edilməsi istiqamətində həyata keçirdiyiniz ardıcıl səyləri tam dəstəklədiyimizi bir daha vurğulayıram".

Təbrikdə o da qeyd olunub ki, son illərdə ölkənizə səfərlərim zamanı Qarabağ bölgəsində müasir infrastrukturun qurulmasının, mədəni irs abidələrinin bərpa edilməsinin, bu ərazilərdə yaşayan əhalinin həyat səviyyəsinin yüksəldilməsinin şahidi oluruq və səmimi bir qardaş kimi bu misilsiz nailiyyətlərdən böyük sevinc hissi keçiririk: "Hörmətli İlham Heydər oğlu, Sizinlə bu il Azərbaycanın füsunkar Bakı, Xankəndi və Qəbələ şəhərlərində açıq və məhsuldar görüşlərimiz, habelə səmərəli danışıqlar zamanı əldə olunan mühüm razılaşmaların tam icrasının strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərimizi tamamilə yeni mərhələyə yüksələcəyinə əminəm".

Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi, Baş nazir Məhəmməd bin Salman bin Əbdüləziz Al Səud və başqalarının Zəfər Günü və Dövlət Bayrağı Günü münasibətilə təbrikləri dövlətlərarası münasibətlərin sıx dostluq və əməkdaşlığa söykənməsinin təzahürüdür. Hər bir təbrikdə qardaş Azərbaycan Hökumətinə və xalqına tərəqqi və firavanlıq diləniilir.

Əlbəttə ki, bu münasibətlər Azərbaycan Prezidenti İlham Əliyevin dünya dövlətləri ilə qurduğu qarşılıqlı etimad əsasında formalaşıb. Cənab Prezidentin qazandığı imic ölkəmizin beynəlxalq nüfuzunu yüksəldib. Prezident İlham Əliyevin apardığı düşünülmüş və gələcəyə hesablanmış beynəlxalq və sosial-iqtisadi siyasəti sayəsində Azərbaycan qısa bir zamanda böyük inkişaf yolu qət edib. Azərbaycanın son illər ərzində böyük dünya əhəmiyyətli transmilli layihələrə imza atması, karbohidrogen yataqlarından istehsal olunan neft və qazın Avropaya və dünyaya çatdırılmasının şaxələndirilməsi, Cənub Qaz Dəhlizində aparılan möhtəşəm tikinti işləri, Bakı-Tiblisi-Qars dəmir yolunun istifadəyə verilməsi, Şimal-Cənub, Qərb-Şərq nəqliyyat dəhlizlərindən istifadə imkanlarımızın genişlənməsi ölkəmizin dünya üçün cəlb ediciliyini daha da artırıb. Bu və ya digər amillər ölkəmizin dünyada dostlarının, tərəfdaşlarının sayını artırır. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə qazandığımız Zəfər ölkəmizin daha işıqlı gələcəyi üçün yeni imkanlar yaradıb.

***Zümrüd BAYRAMOVA***

# "Şuşa yalnız Qarabağ Zəfərinin simvolu deyil,..."

"8 Noyabr - Şuşa şəhəri günü Azərbaycan tarixində Qarabağ Zəfərinin simvolik zirvəsini ifadə edən əlamətdar gündür. Bu gün yalnız bir şəhərin azad edilməsini deyil, həm də xalqın əzmini, milli həmrəyliyini və dövlətin strateji gücünü əks etdirir. Şuşa zəfəri təkcə hərbi uğur deyil, həm də siyasi, mədəni və mənəvi baxımdan Azərbaycan üçün dönüş nöqtəsidir. Bu qələbənin başlanğıcı Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş strateji və siyasi təməl üzərində formalaşmışdır. O, Azərbaycan dövlətçiliyinin möhkəmlənməsini və Qarabağın gələcəkdə ölkə nəzarətinə qayıtmasını hədəfləyirdi". Bu sözləri SİA-ya açıqlamasında politoloq Yusif Bağırzadə deyib.

Onun sözlərinə görə, sonrakı illərdə həyata keçirilən kompleks tədbirlər və məqsədyönlü siyasət Azərbaycanı dünya səviyyəsində söz sahibi edən, güclü iqtisadi və hərbi potensiala malik bir dövlətə çevirdi. Prezident İlham Əliyevin rəhbərliyi ilə ordumuz ən müasir silah və texnika ilə təmin edildi, şəxsi heyətin döyüş qabiliyyəti və mənəvi-psixoloji hazırlığı artırıldı: "Bu addımlar həm Qarabağda ədalətin bərpasına, həm də BMT Təhlükəsizlik Şurasının illərlə yerinə yetirilməyən qətnamələrinin icrasına zəmin yaratdı. Xalqın öz lideri ətrafında birləşməsi və milli həmrəyliyi də bu qələbənin mühüm şərtlərindən biri oldu.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsinin ilk günlərindən qeyd edirdi ki, Şuşasız bu iş yarımçıq qalacaq. 44 günlük müharibə dövründə ordumuz dayanmadan Şuşaya irəlilədi. Noyabrın 8-də Şuşa şəhərinin azad edilməsi isə illərlə xəyal kimi görünən arzunun gerçəyə çevrilməsi oldu. Şuşa əməliyyatı, rəşadətli Azərbaycan Ordusunun igid əsgər və zabitlərinin sıldırım dağlardan, dərin dərələrdən keçərək düşməni şəhərdən qovması ilə tarixə yazıldı. Bu əməliyyat Qarabağ Zəfərinin zirvəsi hesab olunur. 2020-ci ilin




noyabrında Şuşanın azad edilməsi ilə Qarabağ Zəfəri əbədi təsbit edildi. 2021-ci il yanvarın 14-də Azərbaycan Prezidenti Şuşa şəhərində üçrəngli bayrağı ucaltdı və bu hadisə xalqımız üçün tarixi əhəmiyyət daşıdı. Bundan əlavə, 8 Noyabr Azərbaycan Respublikasında "Şuşa şəhəri günü" kimi təntənəli şəkildə qeyd olunur.

Şübhəsiz ki, Azərbaycan yalnız Şuşanın azad edilməsi ilə kifayətlənə bilməzdi. Çünki ərazilərimizdə hələ də sepparatçı rejim mövcud idi. Çox keçmədi ki, 2023-cü ilin sentyabrında həyata keçirilən antiterror əməliyyatı ilə Qarabağda terrorçuların və separatçı rejimin də mövcudluğuna birdəfəlik son qoyuldu. Cəmi 23 saat 48 dəqiqə davam edən bu əməliyyat Ali Baş Komandanın qətiyyətini və Ordumuzun gücünü bir daha nümayiş etdirdi. Düşmən yenidən ağ bayraq qaldıraraq təslim oldu və Azərbaycanın gücü bütün regiona nümayiş etdirildi.

Azad edilən Şuşa şəhəri yalnız hərbi və strateji əhəmiyyətə malik deyil. Bu qədim şəhər Azərbaycanın tarixi-mədəniyyət irsinin mühüm mərkəzidir. 1977-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Şuşa şəhərinin tarixi hissəsi tarix-memarlıq qoruğu elan olunmuşdur. Şuşa şəhərinin azad edilməsindən sonra aparılan bərpa və yenidənqurma işləri onun tarixi simasını qorumaqla yanaşı, şəhərin müasir inkişafını da təmin edir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə 2021-ci il mayın 7-də Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edildi. Bu addım şəhərin qorunması, bərpası, öyrənilməsi, inkişafı və təbliği üçün hüquqi və təşkilati əsaslar yaratdı. Ardınca 2022-ci il "Şuşa İli" elan edildi və şəhər beynəlxalq səviyyədə tanındı. 2022-ci il martın 31-də Türkiyənin Bursa şəhərində Şuşa Türk dünyasının mədəniyyət paytaxtı, 2023-cü il sentyabrın 25-də Qətərdə isə İslam dünyasının mədəniyyət paytaxtı elan edildi. 2023-cü il oktyabrın 5-də isə İqtisadi Əməkdaşlıq Təşkilatının turizm paytaxtı statusunu qazandı. Bu beynəlxalq tanınma Şuşanın yalnız Azərbaycan üçün deyil, bütün Türk və İslam dünyası üçün əhəmiyyətini göstərir. Şuşa şəhərinin bərpası, infrastruktur layihələri və "Zəfər Yolu"nun inşası şəhərin müasir inkişafının əsas simvollarıdır. Prezident İlham Əliyevin təşəbbüsü ilə salınmış 101 km uzunluğundakı Zəfər Yolu həm tarixi, həm də strateji əhəmiyyət daşıyır. Şuşanın bərpası çərçivəsində modul tipli xəstəxana, yaşayış kompleksləri, turizm obyektləri, hotellər və konqres mərkəzləri istifadəyə verilib. Tarixi abidələr bərpa olunmuş, Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün büstləri yenidən yerləşdirilmişdir. Şuşa şəhəri həm milli qürurumuzun təntənəsi, həm də dövlətin gücünün, xalqın birliyinin və strateji qətiyyətin göstəricisidir. Bu şəhər, tarixi-mədəniyyət abidələri, bərpa edilmiş infrastrukturu və beynəlxalq tanınması ilə gələcək nəsillər üçün zəngin irs daşıyıcısı olacaq".

***Günel Fərzəliyeva***

# C5+1 formatı

## Mərkəzi Asiya dövlət başçıları Vaşinqton sammitindən nə gözləyirlər?

Prezident Donald Trampın rəhbərliyi ilə noyabrın 6-da Vaşinqtonda keçirilən Mərkəzi Asiya və ABŞ liderlərinin sammiti regiona sistemli yanaşmanı müəyyən etmək və bütün əsas sahələrdə əməkdaşlığı gücləndirmək məqsədi daşıyır. Təhlükəsizlik, enerji, ticarət və C5+1 formatının inkişafına həsr olunan görüş, həmçinin ABŞ-ın Mərkəzi Asiya üzrə yeni strategiyasının təsdiqi üçün platforma rolunu oynayacaq. Bu il beş Mərkəzi Asiya ölkəsi ilə ABŞ arasında xarici işlər başçıları səviyyəsində unikal əməkdaşlıq formatının - C5+1-in işə salınmasının 10 ili tamam olur. Bu dialoqun ilk görüşü 2015-ci ilin noyabrında Səmərqənddə baş tutdu və qarşılıqlı fəaliyyətin yeni mərhələsinin başlanğıcı olub.

C5+1 formatı ABŞ-ın 2025-ci ilə qədər Mərkəzi Asiya üzrə yeni Strategiyasının təsdiqindən sonra xüsusi əhəmiyyət kəsb etdi. Bu sənəd Əfqanıstandakı vəziyyətdən asılı olmayaraq Mərkəzi Asiya regionunun Amerikanın milli maraqları üçün əsas olduğunu açıq şəkildə göstərir. ABŞ Mərkəzi Asiyanın müstəqilliyini və geostrateji dəyərini vurğulayır. Son illərdə regionda əhəmiyyətli transformasiyalar baş verib: ABŞ-ın Əfqanıstandan çıxarılması, Ukraynadakı münaqişə, Çin iqtisadiyyatının yenidən qurulması və Şərqlə Qərb arasında əsas ticarət arteriyası kimi Orta Dəhlizin artan rolu. Bütün bunlar Amerikanın Mərkəzi Asiyada mövcudluğunu daha da aktual edir, xüsusən nadir torpaq metallarının hasilatı sahəsində əməkdaşlıq fonunda. Bu resurslar ABŞ-ın iqtisadi və texnoloji təhlükəsizliyi üçün kritik əhəmiyyətə malikdir və bu, Vaşinqtonun regiona marağının artması ilə izah olunur. ABŞ prezidenti Donald Tramp və Mərkəzi Asiya ölkələrinin liderləri arasında gözlənilən görüşdə çox güman ki, C5+1 formatının bu yeni geosiyasi reallıqlara uyğunlaşdırılması müzakirə olunacaq. Tramp bu formatda Mərkəzi Asiyadan olan həmkarları ilə görüşən ikinci prezident olacaq. 2023-cü ilin sentyabrında onlar Vaşinqtonda Cozef Bayden tərəfindən də qəbul edilmişdi.

Mərkəzi Asiya ölkələrinin beş prezidentinin Vaşinqtona gözlənilən səfəri hər mənada çağırışdır. Bu, faktiki olaraq silaha çağırışdır, onlardan öz geosiyasi oriyentasiyalarını müəyyənləşdirməyi tələb edir və regionda dövlət siyasətinin "çoxvektorlu" və "neytrallıq" üzərində qurulmuş nəzəri konsepsiyalarına meydan oxuyur. Qərb, Çin və Rusiya arasında. Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT), MDB, Avrasiya İqtisadi İttifaqı (Aİİ) və ATƏT də ABŞ administrasiyası üçün siyasi agentlikləri azalmış strukturlardır. Bunu prezident Trampın BRICS+ formasında daha qlobal müttəfiqliyə qarşı aqressiv qaçışları sübut edir. Məhz buna görə də regionun çoxsaylı rəsmi KİV-ləri əsas mesajı Vaşinqtonda gözlənilən dialoqun "qarşılıqlı hörmətli" və "bərabər" xarakter daşıyacağına cəsarətlə ümid bəsləyən məqalələr dərc ediblər.



Bu arada, ABŞ rəsmilərinin silsilə hadisələri və bəyanatları tədricən hər şeyi perspektivə qoyur. ABŞ-ın Qazaxıstanda yeni təsdiq edilmiş səfiri Julie Staff Senatdakı dinləmələrdə bildirib ki, "Təkcə Qazaxıstan ABŞ iqtisadiyyatı və müdafiəsi üçün "kritik" olan dünya mineral ehtiyatlarının demək olar ki, yarısına malikdir". "Bu gün biz uran hasilatında qlobal lider, əsas neft ixracatçısı və mühüm faydalı qazıntıların böyük ehtiyatlarına malik Qazaxıstanla ticarət və enerji əməkdaşlığının yeni erasının astanasındayıq", - Staff ilkin çıxışında qeyd edib. "Səfir kimi mənim əsas məqsədlərimdən biri, əgər təsdiqlənərsə, ABŞ-ın kritik minerallara investisiyasının davam etməsini və ümid edirəm ki, regionda artan Çin investisiyasını əvəz etməsini təmin etməkdir". Xatırladaq ki, Qazaxıstan və ABŞ artıq Kostanay vilayətindəki neodim, disprosium və terbiumla zəngin olan Akbulak yatağında nadir torpaq metallarının işlənməsi və hasilatı üzrə birgə işlərə başlayıblar. Türkmənistan da öz növbəsində əvvəlki administrasiyada ABŞ ilə açıqlanmayan "sadiqlik paktı" bağladı və bunu yeni administrasiya ilə təsdiqlədi - ABŞ-Çin münasibətlərinin pisləşməsi zamanı (Çinə qaz tədarükü ilə bağlı) "balanslaşdırılmış mövqe" müqabilində. ABŞ Türkmənistanın insan haqlarının vəziyyəti ilə bağlı tənqidi ritorikasından tamamilə kənarlaşdırıb, qaz hasilatı infrastrukturundan dünyanın ən böyük metan emissiyalarına dair tənqidi dayandırmaq üçün Aİ ilə razılaşdırılıb və Türkmənistanda dissident fəaliyyətinin maliyyələşdirilməsinə və Avropadakı türkmən siyasi mühacirətinə son qoyulmasına zəmanət verib.

Vəziyyətin acınacaqlılığına əlavə olaraq, Aİ-nin də Mərkəzi Asiyada "kritik minerallar" uğrunda yarışa qoşulması göstərilir. İki həftə əvvəl Avropa Komissiyasının sədri Ursula fon der Leyen Berlin Qlobal Dialoqunda bunu elan edərək, "Avropa sənayemiz üçün kritik xammalların alternativ mənbələrinə çıxışı təmin etmək" üçün nəzərdə tutulmuş yeni plan və strategiya - RESourceEU elan edib. O, həmçinin Qazaxıstan və Özbəkistanı bu strategiyanın əsas tərəfdaşları arasında qeyd edib və bununla da Aİ-nin Mərkəzi Asiya regionuna dair yeni müstəmləkə siyasətini yekunlaşdırıb.

Mərkəzi Asiyanın beş dövlət başçısının ABŞ-a bu səfəri Rusiyanın regionla bağlı siyasətinə, məsələn, Qırğızıstanda heç də həmişə işləməyən "suverenliyin təminatları" və hakimiyyətin davamlılığı və bütövlüyü üzərində qurulmuş siyasətinə də problem yaradacaq. Çinlə bölgədə şiddətli rəqabət aparmaq, Rusiyaya qarşı sanksiyaların blokadasını gücləndirmək və uzunmüddətli perspektivdə regiondan Əfqanıstana qayıtmaq və İrana təzyiq etmək məqsədi güdür ki, bu, müəyyən dərəcədə itaət və sədaqəti nəzərdə tutur ki, bunun üçün nə Rusiyadan "suverenlik təminatları" yetərli ola bilməz, nə də "neytrallıq" və "qərəzsizliyi" gücləndirəcək.

***V.VƏLİYEV***

# Azadlıq eşqini yaşatmaq üçün...



Necəsən, gözüm nuru?
İçimdən ötən adam,
Yaraların necədir?
Qələbə, vətən adam .
(Elşad Barat)

Müharibənin ən acı dövrü müharibədən sonra başlayır əslində. İnsanlar yalnız o zaman anlayır fəlakətin böyüklüyünü, şəhid olan oğulların yoxluğunu. Uzun-uzadı eşidilən atışma səsləri, mərmi-güllə vıyıltısı, top gurultusu silahların işıqlandırdığı o qara gecələrdə qalır, amma o silahların aldığı canlar, bitirdiyi həyatlar ömür boyu cəmiyyətin ağrısı-acısı, qanayan yarası olur.

Müharibə dövründə və müharibədən sonra itkin hərbçilərin nəşinin tapıldıqca dəfn edildiyi mərasimlər bizi bizdən aldı, rəngimizi boğan, həyat eşqimizi söndürən pandemiya





bəlasının verdiyi mənəvi-psixoloji əziyyət müharibə dəhşətinin yanında heç nə imiş sən demə. Vətən müharibəsində dayımın sonbeşiyi, 4 oğlundan biri, 7 ildir vətənə xidmət edən MAXE Murad İbrahimov da şəhid oldu. Onun şəhidliyə gedən yolu uzun çəkdi, 4 ay səksəkə içində, iztirabla yaşadıq- şəhidliyi ilə dəfni arasında uzun aylar oldu.

Murad dəli-dolu oğlan idi, tezcanlı, hərəkətli, dinamik idi. Onu bir dəqiqə bir yerdə dayanan görməmişdik. Atəş parçası, alov dilimi idi sanki. Gözümün önündə böyüdü, əsgər oldu, MAXE oldu, ata oldu, şəhid oldu. Bir yazıya sığacaq qədər qısa ömrü, bir yazıya sığmayacaq qədər uzun qəhrəmanlığı oldu

Muradla sonuncu dəfə 2020-ci ilin sentyabrında danışmışdıq, Vətən Müharibəsindən günlər əvvəl. Onun işi ilə əlaqədar illərdir görüşmürdük, ancaq telefonla danışa bilirdik. Ad günü idi sentyabrın 6-da. Doğrusu unutmuşdum, gec yadıma düşdü, zəng edib təbrik etdim. Sonuncu ad günü olacaqmış, kimin ağlına gələrdi?

Onu tanıyan hamı bilir ki Muradın uşaqlıq arzusu hərbçi olmaq, vətənin keşiyində durmaq, onu qorumaq olub. Bir parça uşaq idi hələ, əlinə taxtalardan düzəltdiyi avtomatı alıb həyətin künc-bucağına girib səngər-döyüş oyunları oynayırdı.

Sözünün əvvəli də, sonu da Vətən idi Muradın. 2-ci Qarabağ Müharibəsi başlandığı ilk günlərdən öz döyüş yoldaşları ilə ön cəbhəyə yollanmışdı. Təcrübəli hərbçi idi, Murovu da tanıyırdı, ora döyüşə getməyin təhlükəli olduğunu da bilirdi. Amma ora getməkdə israr edib, cüssəcə zəif olduğuna görə Murov kimi çətin iqlim şəraiti olan ərazidə döyüşməsini istəməyən, "cəbhəyə təminat işlərinə dəstək ver" deyən komandirlərinə "məni də göndərin, göndərməsəniz gizlincə qaçıb gedəcəyəm", - deyə təkid edib.

Murad sonuncu dəfə 2020-ci ilin oktyabr ayının 2-də, Vətən Müharibəsinin 5-ci günündə evə zəng edərək 1 yaşlı oğlunu soruşub, "Mən Murova gedirəm, bəlkə qayıtmadım", - demişdi. Bütün döyüş yoldaşları kimi o da bilirdi ki, Murov dağları gedər-gəlməz ola bilər, o dağlardan geri qayıtmaya bilər, amma bu, onu qorxutmamışdı, Vətən üçün ən çətin imtahanına getməyi könüllü istəmişdi yüzlərlə hərbçi yoldaşı kimi. Ailəsi elə ən son səsini o gün eşitmişdi Muradın.

Murad Kəlbəcər rayonu və Xocavənd istiqamətlərində gedən döyüşlərdə iştirak edib. 3 oktyabr 2020-ci il tarixində Kəlbəcər rayonu istiqamətində bir bölük döyüşçü ilə Murova yollanıblar. O döyüşçülərin böyük əksəriyyəti sonralar Azərbaycan tarixinə "Vətən Müharibəsinin İlk şəhidləri" kimi düşəcəkdilər. Murad da onlardan biri olacaqdı.

Batalyon 3 istiqamətdə hərəkət etməli idi. Muradın da daxil olduğu 24 nəfərlik taqım Ağdərə istiqamətində irəliləyərək döyüşüb. Murad Qaragöl istiqamətində (Çınqıllıq adlanan ərazi) gedən qızğın döyüşlərdə iştirak edib, qəhrəmanlıq göstərib. Son döyüşdə ayağından yaralanıb, lakin döyüşü dayandırmayıb, yaralı halda atışmağa davam edib.

Yaxınlığa düşən top mərmisi daha ağır yaralanmağına səbəb olub, sol qolu çiyninədək yanıb. Amma ağır yarası, axan qanı onu sarsıtmayıb, döyüş yoldaşları ilə birlikdə güllə yağışı altında Vətənə olan son xidmətlərini gerçəkləşdiriblər və qəhrəmanlıqla şəhid olublar. Murov dağı o gecə 3 ayrı istiqamətdə döyüşən 60-dan çox igidi udub. Murad İbrahimov da o gənclərdən biri oldu.

Muradı və şəhid olan digər döyüşçü yoldaşlarını tapmaq asan olmadı. Müharibə bitdi, Zəfər Günü insanlar küçələrə axışdı, ölkənin hər yerində şəhid ağıları ilə zəfər hayqırışları bir-birinə qarışdı. Şəhidlər dəfn edildi, anaları o məzarların başında tapdı təsəllini, amma Muradla bərabər həlak olan 60-dək döyüşçüdən hələ də xəbər yox idi.

Murovun öz qoynuna dəfn etdiyi o igidlər 4 ayadək axtarıldılar, ərazini örtən qalın qar axtarışlara mane olurdu. Murov dağı, həndəvəri, Çınqıllıq addım-addım qazıldı, qarın altına qarış-qarış baxıldı. Xilasetmə qrupları çətin şəraitdə, qurşağadək qarın içində işləyirdilər. Şəhidləri tapmaq onların 100 gündən çox axtarışından sonra mümkün oldu. Murad şəhid olduğu gündən 111 gün sonra qalın qar təbəqəsinin altından silahına iki əlli sarıldığı vəziyyətdə tapıldı.

Muradlar olmadan Zəfər Günü qeyd etdik. Zəfər Günü zəfər mahnıları şəhid ağıları ilə eyni küçədə səslənirdi. Muradların qanı ilə yazılan zəfər tarixini əks etdirən yazılar yazdıq, şeirlər, nəğmələr qoşduq. Ürəyinə dağ çəkilən atalar, anaların gözünə baxa bilmədik ondan sonra. Etiraf edirəm, mən ürəkdolusu sevinə bilmədim qələbəyə, zəfərə. Çünki Zəfər günü Murad hələ qar altında idi, ailəsinin gözü yolda, qulağı səsdə idi.



Bilirəm, bu hissi hamımız yaşadıq. Utandıq, qələbəni içimizdə boğularaq yaşadıq. Şəhidlərin ailələrindən-boynu bükülən atalarından, bir gecədə saçı ağaran analarından, beşikdəki balalarından, əli xınada, toy şirnisi xonçada qalan sevdiyindən utandıq.

Kimsə bu gedişə ağ olmalıydı,
Namərd yuvasında boğulmalıydı.
Azadlıq eşqini yaşatmaq üçün,
Ağ atlı Muradlar doğulmalıydı
(Namiq Hacıheydərli)

Murad şəhidliyə ucaldığı gündən 113 gün sonra, 23 yanvar 2021-ci il tarixində Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn edildi. 27 yaşlı şəhid ölümündən sonra "Vətən Uğrunda", "Cəsur Döyüşçü", "Kəlbəcərin azad olunması uğrunda" medalları ilə təltif edildi. Bu gün sinəsi üzərində 3 rəngli bayrağı əks etdirən qərənfillərin fonunda sinə daşından qürurla boylanan gənc o məzarda vətəninə, dövlətinə son vəzifəsini şərəflə yerinə yetirərək uyuyur. Minlərlə silahdaşı kimi...

***Lalə Mehralı***

# "Dil və elm milli dövlətçiliyin əsas dayaqlarıdır"

**"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə akademiyada təşkil olunan yubiley tədbirindəki çıxışı, belə deyərdim ki, Azərbaycan elminin qarşısında duran vəzifələrin yenidən müəyyənləşdirilməsi və Azərbaycan alimlərinin üzərinə düşən məsuliyyətlərin aydın şəkildə göstərilməsi baxımından çox əlamətdar və məzmunlu hesab edilməlidir". Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Taleh Əliyev deyib.**

O bildirib ki, tədbir zamanı ölkə başçısı həm 10 il əvvəl Akademiyanın 70 illik yubileyində səsləndirdiyi fikirləri xatırladaraq keçən dövr ərzində görülən işləri və hələ tam həll olunmamış məsələlərə xüsusi diqqət yetirmişdir: "Burada Azərbaycan dilinə dair məsələlər xüsusilə vurğulanmışdır. Dövlət başçısı ədəbi dildən uzaqlaşaraq dilimizə




yad sözlərin gətirilməsinin milli kimliyimiz və dövlətçilik üçün zərərlərindən danışmış, 50 milyonluq Azərbaycan xalqına və dünyaya çatdırmışdır ki, Azərbaycan dili bu millətin dilidir və onun qorunması müstəqil Azərbaycan Respublikasının üzərinə düşən vacib vəzifədir. Cənab Prezident çıxışında Azərbaycan elmi üçün yeni yanaşmaların vacibliyini də diqqətə çatdırmışdır. Belə ki, Azərbaycan elmi artıq yalnız nəzəri biliklərlə kifayətlənməməli, müasir dünya elmi ilə iqtisadiyyat arasında inteqrasiyanı təmin etməlidir. Elmi nailiyyətlər iqtisadiyyata tətbiq olunmalı, ölkə əhalisinin rifah halını yaxşılaşdırmalı və yeni elmi tutumlu sənayelərin yaradılması ilə iqtisadiyyatın şaxələnməsinə töhfə verməlidir. Eyni zamanda, dünyada tələbatın artdığı hərbi sənayeyə Azərbaycan alimlərinin diqqət yetirməsi, ölkədə müdafiə sənayesi məhsullarının istehsalının təşviqi vurğulanmışdır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi regionlarında aparılan geoloji axtarışların yaxın zamanlarda ölkəmiz üçün xoş xəbərlər gətirəcəyi bildirilmişdir.

Bu çıxış Azərbaycan elminin üsulları və alimlər qarşısında duran yeni vəzifələri aydın şəkildə göstərmişdir. İnşallah, yaxın zamanda həm Akademiya, həm də müvafiq dövlət qurumları tərəfindən elmin inkişafına yönəlmiş yeni dövlət proqramlarının və yol xəritələrinin hazırlanmasına şahid olacağıq. Vacib məqamlardan biri də Azərbaycan iqtisadiyyatında rəqəmsal texnologiyaların tətbiqinə xüsusi diqqət yetirilməsinin vacibliyidir. Beləliklə, cənab Prezidentin çıxışı Azərbaycan elminin qarşısında duran vəzifələri istiqamətlər üzrə dəqiq təhlil etmiş, gələcəkdə atılacaq addımların istiqamətini müəyyənləşdirmiş zəngin və məzmunlu bir çıxış olmuşdur".

***Günel Fərzəliyeva***

# Keyfiyyətsiz geyimlərin artmasının əsas səbəbi NƏDİR?

## EKSPERT RƏYİ

***Son onilliklərdə geyim sənayesi sürətlə "fast fashion", yəni "tez moda" modelinə keçib. Bu modelin mahiyyəti -geyimləri çox ucuz, kütləvi və qısa ömürlü şəkildə istehsal etməkdir. Dünyada hər il 100 milyarddan çox geyim istehsal olunur. Onların çoxu Çin, Banqladeş, Hindistan, Pakistan və Vyetnamda az əmək haqqı ilə çalışan işçilər tərəfindən tikilir. Keyfiyyətə nəzarət çox zəifdir, çünki əsas məqsəd sürətli satış və ucuz qiymətdir. Bu səbəbdən də geyimlər tez deşilir, rəngi solur, bəzən isə dəri allergiyası, qıcıqlanma kimi sağlamlıq fəsadlarına yol açır.***

Azərbaycandakı vəziyyət: Azərbaycanda bazar iqtisadiyyatı azaddır, yəni malın idxalına ciddi keyfiyyət nəzarəti mexanizmi yoxdur. Gömrükdə əsasən sənədlər, rüsum və vergi hissəsi yoxlanılır. 2023-cü ildə ölkəyə 415 milyon ABŞ dolları dəyərində geyim idxal olunub, bu da əvvəlki ildən 42% çoxdur. İdxalın böyük hissəsi Türkiyə, Çin və Özbəkistandan gəlir. Lakin bu geyimlərin keyfiyyəti ilə bağlı rəsmi yoxlama və ya şikayət statistikası aparılmır. Yəni, bazara daxil olan məhsulun sağlamlıq üçün təhlükəli olub-olmaması, dəridə allergiya yaradıb-yaratmaması praktik olaraq izlənilmir.

Məsələyə münasibət bildirən **Yeni Yazarlar İctimai Birliyinin sədri, yazıçı-kulturoloq Aydın Xan Əbilov** bildirib ki, müasir dünyada geyim artıq təkcə zəruri ehtiyac deyil, həm də sosial statusun, estetik zövqün və fərdi kimliyin göstəricisinə çevrilmişdir:

"Bu sahədə həm dünya bazarında, həm



də Azərbaycanda ciddi problemlər mövcuddur. Geyim mədəniyyətinin səviyyəsi, insanların geyim seçimindəki baxış bucağı, keyfiyyətə və uyğunluğa olan münasibət hələ də istənilən səviyyədə deyil. Azərbaycan cəmiyyətində geyim mədəniyyəti, təəssüf ki, çox vaxt səthi yanaşma ilə müşahidə olunur. İnsanlar çox zaman geyimin funksional və estetik tərəflərinə deyil, onun zahiri parıltısına və dəbə uyğunluğuna üstünlük verirlər. Nəticədə ziyafətdə cins şalvar geyinən xanımlardan, yas mərasiminə uyğun olmayan geyimlə gələn insanlara qədər fərqli, lakin mədəni baxımdan uyğunsuz geyim nümunələri ilə tez-tez rastlaşmaq mümkündür. Əslində geyim sadəcə bədəni örtən bir paltar deyil o, insanın yaşadığı mühitə, iqlimə, sosial mövqeyə və bədən quruluşuna uyğun şəkildə seçilməlidir. Təbii materiallardan: pambıq, yun, ipək kimi xammallardan hazırlanan geyimlər sağlamlıq və komfort baxımından daha üstündür. Lakin sürətlə inkişaf edən sənaye və nano texnologiyalar nəticəsində, xüsusən Çin və digər Asiya ölkələrindən gətirilən sintetik və yarısintetik materiallar dünya bazarında üstünlük qazanmışdır.

XX əsrin əvvəllərində dünya əhalisinin sayı 1–2 milyard olduğu halda, bu gün 8 milyardı keçmişdir. Bu qədər insanın geyim tələbatını yalnız təbii xammalla ödəmək real



deyil. Məsələn, bir pambıq parça istehsalı üçün böyük su, enerji və əmək resursu tələb olunur. Buna görə də sənaye ucuz, lakin ekoloji və tibbi baxımdan təhlükəli olan sintetik materiallara üstünlük verir. Azərbaycanda geyim bazarı da bu qlobal tendensiyalardan kənarda qalmamışdır. Özbəkistan, Hindistan, Pakistan, Türkiyə, Rusiya və Ukraynadan gətirilən paltarların böyük hissəsi keyfiyyət baxımından nəzarətdən tam keçmir. Çünki ölkədə idxal olunan geyim partiyalarının hər biri texniki cəhətdən yoxlanıla bilmir, yalnız nümunəvi şəkildə analiz edilir. Bu isə bazarda keyfiyyətsiz, mənşəyi müəmmalı məhsulların çoxalmasına səbəb olur.

Digər tərəfdən, alıcıların geyim seçimi də problemlidir. İnsanlar geyimin tərkibinə, bədənə uyğunluğuna və sağlamlıq təsirinə diqqət yetirmək əvəzinə, televiziya və sosial şəbəkələrdə gördükləri dəbə kor-koranə tabe olurlar. Halbuki, geyimin əsas funksiyası bədəni xarici təsirlərdən qorumaq, nəfəs almasına imkan yaratmaq və komfort təmin etməkdir. Minimalizm anlayışı artıq qlobal moda mədəniyyətinin əsas istiqamətlərindən birinə çevrilib. Bu yanaşma geyimdə sadəlik, funksionallıq və ekoloji məsuliyyət prinsiplərini önə çəkir. Təəssüf ki, Azərbaycanda bu tendensiya hələ geniş yayılmayıb. İstehlakçılar hələ də çoxlu sayda, lakin keyfiyyətsiz geyim almağa üstünlük verirlər. Bu vəziyyət həm insan orqanizminə, həm də ətraf mühitə zərər verir. Sintetik parçalarda istifadə olunan kimyəvi boyalar və maddələr allergiya, dəri xəstəlikləri və digər sağlamlıq problemlərinə səbəb ola bilər. Hər yeni geyim istehsalı isə su, enerji və resurs sərfiyyatını artıraraq planetin ekoloji balansına mənfi təsir göstərir.

Geyimə münasibət həm fərdi, həm də ictimai səviyyədə dəyişməlidir. İnsanlar daha çox maarifləndirilməli, geyim alarkən keyfiyyət, uyğunluq və ekoloji təhlükəsizlik kimi meyarlara diqqət yetirməlidirlər. Həm dövlət qurumları, həm də media bu sahədə maarifləndirici addımlar atmalıdır. Geyim insanı varlı və ya ağıllı göstərmək üçün deyil, onun şəxsiyyətini və zövqünü təbii, sadə və sağlam şəkildə əks etdirmək üçün vasitədir. Hər yeni geyim həm məsuliyyət, həm də seçim mədəniyyəti tələb edir".

**Mövzu ilə bağlı Azad İstehsalçılar Birliyinin sədri Əyyub Hüseynov** isə deyib ki, bugün artıq iqtisadiyyat qlobal səviyyədə tam inteqrasiya olunmuş bir sistemə çevrilib. Artıq "yerli bazar" anlayışı öz əvvəlki mənasını itirib, çünki bu gün dünyanın istənilən nöqtəsində istehsal olunan mal, bir neçə gün, hətta saat ərzində başqa bir ölkənin bazarına daxil ola bilir. Bu proses qloballaşma və azad bazar iqtisadiyyatı prinsipləri ilə idarə olunur: "Azad bazar iqtisadiyyatı o



deməkdir ki, istehsalçılar və ticarətçilər bazara dövlətin birbaşa müdaxiləsi olmadan daxil ola, mallarını istədikləri qiymət və istiqamətdə sata bilirlər. Bu sistemdə əsas məqsəd rəqabət və mənfəətdir. Sahibkar harada satış və gəlir imkanı görürsə, dərhal həmin istiqamətə məhsul göndərməyə çalışır. Biznes qlobal aləmdə bir növ "dünyanı ovuc içində saxlayır" yəni, bazarın istiqamətini artıq dövlətlər deyil, tələb və təklif müəyyənləşdirir.

Azərbaycan da bu prosesin fəal iştirakçı-



sıdır. Ölkə iqtisadiyyatı açıq bazar prinsipləri ilə fəaliyyət göstərir, xaricdən müxtəlif istehsal və sənaye malları, xüsusilə də geyim, məişət və elektronika məhsulları idxal olunur. Bu, bir tərəfdən bazarın müxtəlifliyini və rəqabət mühitini artırsa da, digər tərəfdən keyfiyyətə nəzarət məsələsində müəyyən problemlər yaradır.

Hazırda Azərbaycana idxal olunan bir çox mallar, o cümlədən Özbəkistan, Türkiyə, Çin və digər ölkələrdən gətirilən sənaye məhsulları gömrükdən əsasən sənədlərə və rüsum ödənişlərinə əsasən keçir. Yəni məhsulun sertifikatı, mənşə sənədi və vergi ödənişi varsa, onun fiziki və kimyəvi tərkibinə dair ayrıca laborator və texniki yoxlama aparılmır. Bu, bir növ beynəlxalq ticarət azadlığının nəticəsidir , çünki azad bazar şəraitində dövlətin müdaxiləsi minimum səviyyədə saxlanılır. Əslində, bu mexanizm bir çox hallarda effektiv işləyir. İdxal olunan sənaye mallarının əksəriyyəti ilə bağlı bu günə qədər ciddi kütləvi şikayətlər qeydə alınmayıb. Lakin bu, keyfiyyətə tam zəmanət demək deyil. Qlobal ticarət axınında malların miqdarı o qədər çoxdur ki, hər partiyanın tam yoxlanması texniki və iqtisadi cəhətdən



mümkün olmur.

Bu vəziyyət azad bazarın həm üstün, həm də riskli tərəfini göstərir: dövlət azad ticarətə mane olmur, lakin eyni zamanda istehlakçının təhlükəsizliyinə dair nəzarəti də tam təmin edə bilmir. Məsələn, geyim sənayesində və bəzi istehsal sahələrində məhsulların keyfiyyəti, istifadə olunan kimyəvi maddələr və insan sağlamlığına təsiri məsələləri çox vaxt istehsalçı ölkənin standartlarına əsaslanır. Halbuki bu standartlar ölkədən-ölkəyə dəyişir və bəzən istehlakçı üçün risk yaradır. Bu səbəbdən, azad bazar şəraitində keyfiyyətə ictimai nəzarət və maarifləndirmə xüsusi əhəmiyyət daşıyır. Əgər dövlət hər məhsulu texniki olaraq yoxlaya bilmirsə, bu halda istehlakçının məlumatlılığı və seçimi ön plana çıxmalıdır. İnsanlar nə alır, haradan alır, məhsulun mənşəyi nədir bunları bilməlidir.

Azad bazar iqtisadiyyatı təkcə pul qazanmaq və ticarət etmək sistemi deyil. O, həm də məsuliyyətli istehlak, etik biznes davranışı və keyfiyyətli məhsul istehsalı prinsiplərini tələb edir. Əks halda, iqtisadi azadlıq, sosial məsuliyyətsizliyə çevrilə bilər".

***Günay Hacıyeva***



# Vətənə daş, torpağa qardaş, ölkəyə vətəndaş olduq!

***Daş, tarixdir, əsrlərin o başından bu başınadək ötən tarix. Biz olmasaydıq, o tarixi kim yaşadardı? Biz Vətənə daş olduq. Hər dağında, hər qayasında, çayında, hər elində... Daş olduqca da daşlaşdıq. Tariximizi yazdıq. Hünər, qəhrəmanlıq səhifəsini öz əllərimizlə yazıb bu Vətənin daşına çevrildik. Qoparmaq istədilər, qopmadıq. Daşımaq istədilər, yerimizdən qaldıra bilmədilər. Əlləri külünglə gəldilər üstümüzə, bir qətrəmizi qopara bilmədilər. Çünki biz bu Vətənin daşı olduq. Yerindən tərpənməyən, düşdüyü yerdə ağır olan daşı...***

Qardaş arxadır, dayaqdır. Qardaş düşmən çəpəridir. Sinəsini qabağa verib arxadakıları qoruyan, namusunu, qeyrətini çəkən, elinin qız-gəlinini göz bəbəyi kimi qoruyan, ağsaqqal-ağbirçəyinə saygı ilə yanaşan oğuldur. Düşmənin əyri baxan gözünü oyan, el qoruqçusu, torpaq sevdalısı, məmləkət qeyrətlisidir. Həddi-buluğa çatan gündən kişiliyini hiss edən, çiyinlərindəki yükün nə olduğunu anlayan, bütün bunlara görə də həyat tərzini quran igiddir, ərdir.

Vətənin sərhədlərini oğul üçün binə edib Yaradan. Edib ki, parça-parça ayırıb məmləkətlərə, Vətənlərə, ölkələrə böldüyü yer üzü dünyaya göndərdiyi ərlərlə qorunsun. "Məhz oğullarla qorunmalıdır Vətən" deyib Yaradanımız. Bu missiyanı, vəzifəni yaradılışdan onlara bəxş edib.

Biz hamımız-kişili-qadınlı torpağın qardaşıyıq, onu mühafizə edənlərik. Qadınlara yaradan o vəzifəni verib ki, dünyaya oğul gətirsinlər. O oğullar isə torpağa canlarını qurban vermək üçün gözlərini dünyaya açsınlar. Elə buna görə də deyilməyibmi ki, oğul torpaq payıdır. Yəni istənilən bir məqamda yaşından asılı olmayaraq o torpağın-ən çox sevdiyi sevdalısının payına çevrilə bilər...

Biz ölkəmizə vətəndaş olduq. Xalq şairi rəhmətlik Məmməd Araz yazırdı ki, Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı. Biz ölkəmizin vətəndaşı olmağı əsrlərdir haqq edirik. Çünki öncə onun daşı olmağı bacarmışıq. Tarixin o üzündən bəri əllərimizlə yazdığımız salnamələri vərəqləsək, görərək ki, bu xalq yadelli işğalçılarla, torpağımızda gözü olanlarla, bu səbəbdən də ölkəmizə yürüşlər edənlərlə necə mübarizələr aparıb, bu torpağın hər bir qarışının qorunması, mühafizə olunması üçün canından keçib. Beləliklə də biz Vətənin daşı olmuşuq ki, bu Vətəni, bu torpağı bu günlərə gətirib çıxara bilmişik. Deməli, biz həqiqətən də ölkəmizin vətəndaşı olmağı haqq etmişik.

## Çox uzağa getməyək...

Bəli, daş tariximizi kəlmə-kəlmə oxuyub öyrənmişik. Kimlərin bu xalqla hansı münasibətdə olduğunu, kimlərin üzdə, kimlərin arxada dostluğunu da, düşmənliyini də görmüşük.

Çox uzağa getməyək. yaşımızın imkan verdiyi, özümüzü anladığımız dövrlərə bir nəzər salaq. Biz haralardan haralara gəldik. Bizim başımıza nələr-nələr gəldi. Qonşuluqdan kənar ermənilərdən söhbət açaq. Hansı ki, ötən əsrin əvvəllərindən süfrəmizin başındakı düşmənimizdir bu yersiz-yurdsuzlar. Haradan gəlib bizimlə qonşu oldular, heç bilmədik. Bir də ki qonşu oldular deyəndə, onların torpağı yox idi ki, bizimlə də qonşu olalar. Bizə sığına-sığına, süfrəmizin qırıq-quruğu ilə dolana-dolana içimizdə düşmənə çevrildilər. Sonra torpaqlarımıza göz dikənlərin havadarları hərdən bir qarışımızı qoparıb "onların olsun" dedi və beləliklə də bu vəhşi qəbilə qulağımızın dibindəcə düşmən qonşumuza çevrildi.

Başqasının hesabına torpaq sahibi olanlar elə ki, bir qədər özlərinə gəldilər, başladılar yeni-yeni torpaq iddialarına. Yəni bunları da onlara vəsiyyət edənlər, başa salanlar var idi. Yoxsa əzəldən torpağı, bu torpağa bağlılığı, sevdası olmayan yaradılanda sonradan bu hisslər formalaşa bilməz.

Arxalarında dayananlar, əslində Azərbaycanın varlığını, sərvətini sinirə bilməyənlər erməni adlı varlıqları qızışdırıb ortaya saldı ki, bizim hüzurumuzu qaçırsınlar. Dinc yaşamağımızı, regionda söz sahibi olmağımızı əngəlləsinlər. Çünki bu dövlətin sabahındakı işıq onların gözlərini qamaşdırıb korluq həddinə gətirməkdə idi.

Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində ermənilər qızışdırılıb yenidən ortaya salındılar. Bütün havadarlarının gücü ilə Azərbaycan torpaqlarını işğal etmək, ölkəni yaralamaq, o yaraların illərlə qan süzməsinə çalışdılar. Beləliklə də XIX-XX əsrin ayrı-ayrı illərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları 80-ci illərin sonundan başlanan erməni işğalçılıq siyasəti ilə başa çatdı. Nəticədə həmin illərdə Azərbaycanda hakimiyyətdə olan AXC-Müsavat cütlüyünün də ermənilərin havadarları ilə əlbirliyi ilə torpaqlarımızn 20 faizdən artığı erməni faşistləri tərəfindən işğal edildi.

## İşğal edildi, yoxsa...

Torpaqlarımız əslində ermənilərə satılmışdı. Səriştəsiz qruplaşmanın vəzifə kürsüsünə, hakimiyyətdə qalmaq arzusuna, yerlərini bərkitmək istəklərinə qurban getmişdi Qarabağ və Şərqi Zəngəzur. Lakin siyasət o qədər ikibaşlı idi ki, AXC-Müsavat cütlüyü torpaqları satmaqla yanaşı, həm də



minlərlə oğul və qızımızın, günahsiz körpənin qətlinə fərman vermişdi. Vətən daşı olan torpaq sevdalılarımız əllərində ov silahı, şana, yaba, dırmıq ilə düşmənin qarşısına çıxmışdılar. Düşmən isə havadarları tərəfindən ən müasir silahlarla silahlanmışdı.

Bizim hakimiyyət həvəsliləri isə torpaqları satıb otaqlarında gizlənmiş, Qarabağ üçün kömək uman insanlardan dəqiqəbaşı gələn telefonları açmırdılar. İnsanlar cəbhədə kütləvi şəkildə şəhid olur, qan su yerinə axır, soydaşlarımız öz ata-baba ocaqlarından, əzəli yurdundan silah burnunda çıxarılır, qovulur, hakimiyyətdəkilər isə susmağa üstünlük verirdilər.

Bu səbəblərdən də heç vaxt işğal sözü ilə razılaşmaq istəmirəm. Erməni kim idi ki, Azərbaycan torpaqlarını işğal edə. Minlərlə insanı qətlə yetirə, minlərlə insanın 30 il köçkün həyatı yaşamasına səbəb ola...

Torpaqlarımız satılmışdı. Bu, tarixi faktdır. Azərbaycanlıların heç vaxt unutmayacağı, tariximizin qara bir səhifəsini təşkil edən fakt. Deməli, bəli, heç də hər kəs Vətən daşı olmağı bacarmırmış. Daha doğrusu Vətənin daşı olmaq da gərək Ulu Yaradan tərəfindən insana nəsib edilə. Çox təəssüf ki, onların bu nəsibdən payı olmadı. Tarixin səhifələrində deyil, zibilliyində yer aldılar.

## Beləliklə, 30 il...

90-cı illərin əvvəllərində minlərlə şəhid versək də, insanlar hər qarış torpaq uğrunda canından keçsə də, lakin milli ordumuzun yox dərəcədə olması, hakimiyyətdə olanların isə qəti şəkildə yaxına durmaması nəticəsində torpaqlarımız anası Azərbaycandan ayrı düşməli oldu. Düşmən 30 il əzəli torpaqlarımızda at oynatdı. Sərvətlərini daşıdı, satdı-sovdu, tarixi-mədəniyyət abidələrimizi, məscidlərimizi yox etdi, bir sözlə, daşı daş üstündə qoymadı. Bu torpaqlara faşizmin ən qəddar üsullarını tətbiq etdi. Bununla bir tərəfdən də həqiqəti ortaya qoydu əslində. "Bu torpaqlar bizimdir",- deyən ermənilərin yanlış fikirdə olduğunu elə ilk günlərdən təsdiqlədi. Çünki insan övladı özünün olanlara qətiyyən bu divanı tutmazdı.

Minlərlə məcburi köçkün ozanmankı iqtisadiyyatı çökmüş Azərbaycanın dörd bir tərəfinə yayıldı. Həmin vaxtlar insanların hansı zülmlərlə, çətinliklərlə qarşılaşmasına, hansı şəraitdə yaşamasına çoxlarımız şahidik. O zamana kimi ki, Ulu Öndərimiz yenidən Azərbaycanda hakimiyyətə gəldi, AXC-Müsavat qruplaşması hakimiyyətdən uzaqlaşdırıldı. Bundan sonra iqtisadiyyatımız, sosial həyatımız kimi, məcburi köçkünlərin də həyat tərzi dəyişməyə başladı. Ancaq onlar üçün nə qədər təminatlı şərait yaradılsa da, yurd həsrəti, ocaq arzusu bir saniyə də bu insanları tərk etmədi. Minlərlə soydaşımız elə qəriblikdəcə yurd həsrəti, hicranı ilə dünyasını dəyişdi.

Torpaqlarımızdan 30 il ayrı qaldığımız illərdə 1993-cü ildən başlayaraq Ulu Öndər Heydər Əliyev tərəfindən əzəli yurdlarımızın geri alınması üçün çoxsaylı tədbirlər həyata keçirildi. Milli Ordumuz təkmilləşdirilməyə başlandı. Hələ Ulu Öndər Naxçıvanda olarkən bu addım orada atılmışdı. Çünki Öndərimiz yaxşı bilirdi ki, nə qədər ki, ordumuz yoxdur, torpaqların azadlığından söhbət gedə bilməz. Ölkə iqtisadiyyatı da həmçinin. Çökmüş iqtisadiyyat dirçəlmədən hansı müharibədən söhbət gedə bilərdi. Zəfər qazanmaq, düşməni çökdürmək üçün axı güc lazım idi.

Biz illərlə bir gün torpaqlarımızı qaytarmaq arzusu ilə yaşadıq. Ulu Öndərin başladığı, lakin ömrün vəfa etmədiyi işləri 2003-cü ildən dövlətimizin başçısı, Ali Baş Komandan cənab İlham Əliyev davam etdirdi. Ölkə iqtisadiyyatı ilə ordu quruculuğu paralel şəkildə elə inkişaf etdirildi ki, onların tarazlığı eyni səviyyədə oldu. 2020-ci ilə qədər düz 17 il ölkə rəhbəri dünyanın ən mötəbər kürsülərindən beynəlxalq təşkilatlara üz tutdu. Onlara Azərbaycan həqiqətlərini çatdırdı.



Erməni yalanlarını ifşa etdi. Sülh yolu ilə torpaqlarımızın qaytarılması uğrunda mübarizə apardı. Lakin dünya susdu. Ədalətə kar olduğu üçün deyilənləri eşitmədi və anlamadı.

Lakin dövlətimizin başçısı bütün bayram və əlamətdar günlərlə bağlı xalqa müraciətlərində həmişə onu da vurğulayırdı ki, torpaqlarımız bir gün azad olunacaq. Sülh yolu ilə olmasa, hərb yolu ilə azad edəcəyik. Bu, tarixi ədalətdir. Bu ədalət bir gün qalib gələcək.



## Belə də oldu

2020-ci ilin sentyabr ayı... Əsl Vətən daşı, torpaq qardaşı, ölkə vətəndaşı olduğumuzu təsdiq etdiyimiz o gün-27 sentyabr. Həmin gün dövlətimizin başçısı televiziya ilə



xalqa müraciət edərək İkinci Vətən müharibəsinin başladığını bəyan etdi.

Erməni vəhşiliyinə, tamahına son qoymağın vaxtı çatmışdı. Müharibənin başlaması acı xəbərdir. Bunu kitablardan da oxumuşuq, filmlərdən də öyrənmişik, 90-cı illərdə Birinci Vətən müharibəsində isə canlı şəkildə görmüşük. Lakin dövlətimizin başçısının müharibənin başlanması ilə bağlı bəyanatını sevinclə qarşıladıq. İnanın ki, bu, dünya tarixində ilk belə hadisə idi. Bunun isə səbəbləri vardı: biz Vətənin daşı idik, torpağın qardaşı, sevdalısı idik. Əsl vətəndaş idik. Bax, elə bunlara görə də Vətənin tamlığı, ərazi bütövlüyü uğrunda ölümə getdiyimizi bilə-bilə sevinirdik. Müharibəni ağlamaqla, sızlamaqla deyil, sevinclə, qürurla qarşılayırdıq.

Həmin gündən etibarən bütün Azərbaycan ayağa qalxdı. Hər kəs cəbhəyə yollanmağa can atırdı. Səfərbərlik idarələrinin qarşısı insanla dolu idi. Lakin milli ordumuz öndə idi. Könüllü gedənlərin sayı-hesabı yox idi. Bu səbəbdən də hamı gedə bilmirdi. Onlar Ali Baş Komandanın əmrini gözləyirdi. Bir əmrlə hər kəs bir günün içərisində Qarabağda və Şərqi Zəngəzurda olmağa hazır idi.

Şiddətli müharibə gedirdi. Lakin müharibənin ilk günündən üstünlük Azərbaycan tərəfdə idi. Müharibənin ilk günündən qələbə müjdəsini dövlətimizin başçısından almışdıq. Bu sevinclə daha bir güc tapmışdıq özümüzdə, əmin idik ki, qələbə bir-birinin ardınca bizim olacaq və biz Böyük Zəfəri yaşaya biləcəyik...



## Zəfər sevincini yaşaya bildik

Tarixi Zəfər Vətən daşı olanların əsl vətəndaşlığı sayəsində qazanıldı. Ölkəmizdə yetişdirilən vətənpərvər gənclərə hərbin sevdirilməsi, torpaq sevgisinin aşılanması, əzəli yurdlarımızın uzun illər haqsızlığa qurban getməsinin, minlərlə insanın da bu ədalətsizliyə tuş gəlməsinin bütün detalları ilə çatdırılması onlarda düşmənin gözlərini oymaq, qisas almaq hissini ən yüksək həddə çatdırmışdı. Bu səbəbdən də gənclər çoxdan idi ki, o günləri gözləyirdi. Həmin gün isə 2020-ci ilin sentyabr ayının 27-dən noyabr ayının 10-dək düz 44 gün, 2023-cü ilin 19-20 sentyabrında isə düz bir gün davam etdi. Bu dəfə də minlərlə şəhid verdik, minlərlə qazimiz oldu. Lakin bu dəfə 90-cı illər müharibəsindəki kimi əllərimiz boş qalmadı. İgidlərimiz cəbhədən evlərinə Zəfər sevinci, əzmi, qüruru ilə qayıtdılar.

Biz Zəfər çaldıq. Qarabağı və Şərqi Zəngəzuru erməni tapdağından xilas etdik. 30 illik həsrət sona çatdı. Bütün xalq qələbə sevincini yaşadı, ölkə toy-bayrama büründü.

Bəli, şəhid verdik, ürəyimizdən qara qanlar axdı. Övlad itirmək heç də asan məsələ deyil. Lakin biz analar oğulları Vətən üçün dünyaya gətiririk. Bax, tək təsəllimiz bu oldu. Ali Baş Komandanımız və rəhbərlik etdiyi Milli Ordumuz bizim namus, ləyaqət məsələmizi həll etdi. İllərlə torpaqlarımızın işğal altında olmasını başımıza qaxanc edənlərin yanında alnımızı açıq, üzümüzü ağ etdilər. Buna görə də şəhidlərimizin ruhu qarşısında baş əyir, Ali Baş Komandanımıza dünya durduqca minnətdarlıq edir, Milli Ordumuzla qürur duyuruq.

Biz hər zaman Vətənimizin bax, belə daşı, ölkəmizin bax, belə vətəndaşı olmuşuq. İgidlik, qəhrəmanlıq, ərlik abidəsi olmuşuq. Bunu 2020-ci ilin 44 və 2023-cü ilin 1 günü bir daha təsdiq etdi.

***Mətanət Məmmədova***

---

# ZƏFƏR GÜNÜ - gücün, birliyin və müstəqilliyin rəmzi

***8 noyabr - Zəfər Günü Azərbaycan xalqının tarixində qürurla, iftixarla və sonsuz minnətdarlıqla anılan günlərdən biridir. Bu gün 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazanılmış böyük Qələbənin simvoludur. Zəfər Günü həm də Azərbaycan xalqının birliyinin, müdrikliyinin və milli ruhunun təntənəsidir.***



***Vəli VƏLİYEV, əməkdar jurnalist***

Azərbaycan 1990-cı illərin əvvəllərində Ermənistanın işğalçılıq siyasəti nəticəsində torpaqlarının bir hissəsini itirmiş, minlərlə soydaşı doğma yurdlarından didərgin düşmüşdü. Lakin xalqımız heç vaxt bu ədalətsiz vəziyyətlə barışmadı. Uzun illər aparılan danışıqlar heç bir nəticə vermədi. Dünyanın aparıcı ölkələrinin həmsədrlik etdiyi keçmiş Minsk qrupunun "ədalət tərəzisi"nin mili yanlış tərəfi göstərdiyindən sülh heç üfüqdə də görünmürdü. Təbii, xalqın səbr kasası dolanda onun qarşısında heç bir qüvvə tab gətirə bilməz. 2020-ci ilin 27 sentyabrında başlayan Vətən müharibəsi Azərbaycanın tarixi haqq mübarizəsi idi. 44 gün davam edən döyüşlərdə rəşadətli Azərbaycan Ordusu Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə düşməni darmadağın, torpaqlarımızı isə azad etdi. 8 noyabr 2020-ci ildə Şuşanın azad olunması bu müharibənin zirvə nöqtəsi oldu. Şuşanın azadlığı ilə Azərbaycan xalqı təkcə torpağını deyil, həm də mənəvi sərvətini, qürurunu, kimliyini geri aldı.

Həmin tarixi hadisənin əbədiləşdirilməsi məqsədilə Prezident İlham Əliyev tərəfindən 8 noyabr - Zəfər Günü elan olundu. Bu qərar təkcə bir hərbi qələbənin deyil, bütöv bir xalqın iradəsinin, birliyinin və milli dirçəlişinin təntənəsidir. Hər bir xalqın tarixində elə günlər olur ki, həmin günlər əsrlərin yaddaşında silinməz iz buraxır, millətin varlığını, gücünü və mənəvi dirənişini təsdiqləyir. Azərbaycan xalqı üçün 8 noyabr - Zəfər Günü məhz belə bir tarixdir. Bu gün təkcə hərbi qələbə deyil, həm də milli birliyin, dövlət müdrikliyinin və xalqın əzmkarlığının parlaq simvoluna çevrilib.

Ötən əsrin son onilliyində baş vermiş Qarabağ müharibəsi nəticəsində Azərbaycanın ərazi bütövlüyü pozulmuş, yüz minlərlə soydaşımız doğma yurdlarından didərgin düşmüşdü. Lakin Azərbaycan xalqı heç vaxt bu ədalətsiz vəziyyətlə barışmadı. On illərlə davam edən səbr, milli iradə və müstəqil dövlət quruculuğu prosesi sonda öz bəhrəsini verdi. Vətən müharibəsi 44 gün ərzində Azərbaycan Ordusunun və xalqının misilsiz qəhrəmanlığı ilə nəticələndi. 8 noyabr 2020-ci ildə Şuşanın azad edilməsi bu müharibənin həlledici məqamı oldu. Şuşa - Azərbaycan mədəniyyətinin beşiyi, Qarabağın tacı idi. Onun azadlığı ilə xalqımızın tarixi ədalətə qovuşması gerçək oldu.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin imzaladığı qərarla 8 noyabr - Zəfər Günü elan edildi. Bu tarix artıq Azərbaycan dövlətçiliyinin və xalqın birliyinin ən yüksək mərhələsini simvolizə edir. Zəfər Günü təkcə hərbi qələbə günü deyil, ədalətin, milli qürurun və mənəvi bütövlüyün rəmzidir. Bu bayram xalqın birliyini, ordunun qüdrətini, gənclərin vətənpərvərlik ruhunu və şəhidlərimizin müqəddəs xatirəsinə sədaqəti təcəssüm etdirir. Hər il bu tarixdə Azərbaycan şəhərləri üçrəngli bayrağa bürünür, küçələrdə qürur və minnətdarlıq duyğusu hökm sürür. Zəfər Günü həm də bir tərbiyə məktəbidir - gələcək nəsillərə milli dəyərləri, vətən sevgisini və müstəqilliyin qiymətini aşılayan mənəvi dərsdir.

## Zəfərin rolu

Qarabağın azadlığı Azərbaycan milli identikliyinin bərpasında dönüş nöqtəsi oldu. Əgər 1990-cı illərin faciəli hadisələri xalqın yaddaşında ağrı kimi yaşayırdısa, 2020-ci ilin Zəfəri bu ağrını qürurla əvəz etdi. Bu qələbə göstərdi ki, Azərbaycan xalqı tarixi irsinin, dilinin, mədəniyyətinin və torpağının sahibi kimi öz gələcəyini özü müəyyənləşdirə bilir. Milli identiklik artıq yalnız keçmişin xatirəsi deyil, həm də gələcəyə yönəlmiş bir ideadır - güclü, suveren və qürurlu Azərbaycan ideyası.

Zəfər Günü xalqın özünəinamını möhkəmləndirdi, milli birliyi daha da dərinləşdirdi. Bu gün hər bir azərbaycanlı harada yaşamasından asılı olmayaraq, "Qarabağ Azərbaycandır!" deyərkən eyni fəxarəti duyur.

Zəfər Günü - Azərbaycan tarixində qürur, azadlıq və milli yenidən doğuluş günüdür. Bu gün şəhidlərin qanı, qəhrəmanların fədakarlığı və xalqın sarsılmaz iradəsi ilə yazılmış bir dastandır. Bu qələbə bizə yalnız torpaqlarımızı deyil, həm də milli kimliyimizi, özünəinamımızı və gələcəyə inamımızı qaytardı.

Zəfər Günü - Azərbaycanın əbədi müstəqilliyinin, gücünün və birliyinin təntənəsidir.

Zəfər Günü xalqın yaddaşına yalnız qələbə günü kimi deyil, həm də ədalətin, qürurun və birliyin təcəssümü kimi həkk olunub. Hər il bu tarixdə ölkəmizin hər yerində bayraqlar ucaldılır, şəhidlərimizin ruhuna dualar oxunur, qəhrəman igidlərimizin xatirəsi böyük ehtiramla anılır. Bu gün həm də gələcək nəsillər üçün vətənpərvərlik məktəbidir. Zəfər Günü gənclərə vətən sevgisini, milli dəyərlərə sadiqliyi və azadlığın qiymətini öyrədir. Hər bir azərbaycanlı üçün bu tarix qürur, minnətdarlıq və vətən sevgisi ilə dolu bir gündür.

Qarabağın azad olunması milli kimliyimizin, qürurumuzun bərpasında dönüş nöqtəsi oldu. Uzun illər davam edən işğal dövrü xalqımızın ruhunda yara açmışdı. 2020-ci ilin Zəfəri isə bu yaraları sağaltdı, milli kimliyimizi daha da möhkəmləndirdi. Bu Qələbə sübut etdi ki, Azərbaycan xalqı öz taleyinin sahibi, tarixi irsinin qoruyucusu və gələcəyinin qurucusudur. Xalqın birliyinin və milli şüurunun rəmzinə çevrilib. Zəfər Günü milli birliyin, dövlət müstəqilliyinin və xalqın sarsılmaz iradəsinin birmənalı təsdiqidir.

Azərbaycan xalqı bu Qələbə ilə sübut etdi ki, azadlıq və ədalət uğrunda mübarizədə heç bir maneə qarşısında dayanmaz. Şəhidlərimizin qanı ilə yazılan bu şanlı tarix gələcək nəsillər üçün əbədi örnək olacaq. Zəfər Günü - Azərbaycanın gücünün, birliyinin və əbədi müstəqilliyinin rəmzidir!

# Makiyajın istifadəsi və dəridə yaratdığı dəyişikliklər NƏDİR?

ARAŞDIRMA

***İnsan tarix boyu öz görünüşü üzərində düşünmüş, onu dəyişdirməyə, vurğulamağa və ideal formaya yaxınlaşdırmağa çalışmışdır. Makiyaj, bəzən sadəcə gözəlləşmək vasitəsi kimi görünür, lakin əslində onun arxasında həm mədəniyyət, həm estetika, həm də bioloji təsir mexanizmləri dayanır. Müasir dövrdə makiyaj yalnız bayram, tədbir və xüsusi günlərin tərkib hissəsi deyil - gündəlik həyatın, iş mühitinin, sosial medianın və özünə təqdimatın önəmli elementi halına gəlib. Güzgü qarşısında çəkilən bir lay tonaldan daha çox məna daşıyan makiyaj, bəzən insanın özünə güvənini artırır, bəzən isə əksinə - onu öz təbii görünüşündən uzaqlaşdıraraq asılılıq yaradır.***



Dəri isə sadəcə xarici görünüş qatı deyil. O, insan orqanizminin ən böyük və ən həssas orqanıdır, bədəni mikroblardan, çirklənmədən və mühit təsirlərindən qoruyan canlı sipərdir. Hər dəfə dəriyə sürtülən pudra, ton, qələmlər və tuşlar bu canlı toxumanın nəfəs almasına, özünü yeniləməsinə təsir edir. Buna görə də makiyajın istifadəsi sadəcə gözəllik praktikası yox, həm də dəri sağlamlığı məsələsidir.

## Makiyaj dəri üçün nə deməkdir və dərinin strukturu buna necə reaksiya verir?

Dəri yalnız görünüş qatından ibarət deyil, o, bədənin müdafiə sistemidir. Əsas funksiyaları: bakteriyalardan qoruma, toksinlərin bədəndən atılması,temperaturun tənzimlənməsi, dəri nəfəs alan, daima yenilənən canlı bir toxumadır.

Makiyaj dərinin üzərində bir örtük kimi yerləşir və əgər bu örtük qalın, ağır və uzunmüddətli olarsa, o zaman dəridə oksigen dövriyyəsi zəifləyir, hüceyrə yenilənməsi ləngiyir və maddələr mübadiləsi pozulur. Bu zaman dəri: daha tez yorulur, solğunlaşır, keyfiyyətini itirir və qocalma tempi sürətlənir.

## Niyə makiyajdan əvvəl dərini təmizləmək vacibdir?



Dərinin səthində gün ərzində yağ, toz, tər və mikroorqanizmlər yığılır. Bu qatların üzərinə tonaldan, pudra, primer və digər məhsullar çəkildikdə, dəri səthi tam bağlanmış olur. Əgər dərinin nəfəs alması kəsilərsə: məsamələr genişlənir, yağ və bakteriya içəridə qalır, nəticədə iltihab və sızanaq başlayır.

Bu səbəbdən makiyajdan əvvəl dərinin toxumasını açmaq və təmizləmək, həm gözəllik, həm də sağlamlıq üçün bünövrə rolunu oynayır.

## Makiyaj gecə niyə mütləq şəkildə silinməlidir?

Yuxu vaxtı dəri özünü bərpa edən orqandır. Əgər gecə makiyaj təmizlənməzsə, dəri hüceyrələrinin yenilənmə pro-



sesi dayanır. Nəticədə: qara nöqtələr artır, dəri rəngi bərabərliyini itirir, dəri "yorğun" görünür, kollagen istehsalı azalır. Dermatoloqlar bildirir ki: "Bir gecə makiyajla yatmaq, dərini 3 gün qocaldır".

## Göz makiyajı niyə daha risklidir?

Gözlər insan bədənində ən həssas selikli toxumaya sa-



hib sahələrdən biridir. Tuş, layner və göz kölgəsi göz qapağının kənarındakı yağ vəzilərini tıxaya bilər. Bu zaman insan: göz yanması, qızartı, yaşarma, bulanıq görmə kimi problemlərlə qarşılaşa bilər.

Uzunmüddətli və gigiyenasız göz makiyajı kronik göz iltihabına (blefarit və konjonktivit) səbəb ola bilər.

## Kosmetika tərkibində hansı maddələr dəri və orqanizmə təsir edir?

Kosmetikanın bir çoxunda qoruyucu, sabitləşdirici və rəngverici maddələr olur. Bunların içində paraben, ftalat, formaldehid və ağır metallar ən çox müzakirə olunanlardır. Bu maddələr bədənə kiçik miqdarda olsa belə toplanaraq: hormon sistemini poza bilər, dəridə qızartı və allergiya yarada bilər, uzunmüddətli istifadə zamanı immun sistem yükünü artırır. Dünya Dermatologiya Assosiasiyası bu maddələri "endokrin sistem pozucu" kimi təsnif edir.

## Makiyaj hormon sisteminə təsir edə bilərmi?

Xüsusilə paraben və ftalatlar estrogen hormonunu təqlid edir. Bu təsir çox güclü olmasa da, davamlı və illərlə istifadə edildikdə bədəndə hormonal balanssızlığa səbəb ola bilər. Bu vəziyyət nəticəsində: sızanaqlar artır, aybaşı dövrü nizamsızlaşa bilər, bəzi hallarda saç tökül-



məsi müşahidə edilir.

## Bədən makiyajı (tonal, pudra, kontur) psixoloji təsir göstərə bilərmi?

İnsan nə qədər çox makiyajdan asılı olarsa, öz təbii görünüşünə güvəni bir o qədər azalır. Bu hal psixologiyada "ideal görüntü asılılığı" kimi izah olunur. Şəxs güzgüdə yalnız makiyajlı formasını qəbul edir, makiyajsız halını isə "kifayət qədər yaxşı deyil" kimi görməyə başlayır. Bu, özünə



dəyər hissinin zəifləməsinə səbəb ola bilər.

## Dünya nəzəriyyələrində makiyajın sosial və bioloji rolu necə qiymətləndirilir?

Dünya gözəllik mədəniyyətləri göstərir ki, makiyaj həm özünü ifadə, həm mədəni rol, həm də psixoloji müdafiə mexanizmi ola bilər. Lakin bütün nəzəriyyələrin ortaq nəticəsi belədir: "makiyaj insanı gücləndirdiyi qədər, yanlış istifadə edildikdə onu zəiflədir".

***Günel Fərzəliyeva***

# Yeni nüvə yarışı?

## *ABŞ, Rusiya və Ancelina Coli*

Oktyabrın sonunda Donald Tramp özünün TruthSocial adlı sosial media hesabında yazıb ki, digər ölkələrin sınaq proqramlarına cavab olaraq, Müharibə Departamentinə ABŞ-ın nüvə silahlarının sınaqlarına "bərabər əsaslarla" başlamaq barədə göstəriş verib. Vladimir Putin bir sıra nazirliklərə ABŞ-ın Nüvə Sınaqlarının Hərtərəfli Qadağası Müqaviləsini pozub-pozmadığını təhlil etməyi tapşırıb. Onun sözlərinə görə, bu məlumat təsdiqlənərsə, Moskva "müvafiq cavab verməli olacaq". Donald Trampın son bəyanatlarına cavab olaraq Rusiya Təhlükəsizlik Şurasının iclasında nüvə silahı mövzusu qaldırılıb. Bəzi iştirakçılar etiraf ediblər ki, Ağ Ev rəhbərinin ABŞ-ın nüvə silahı sınaqlarının bərpası ilə nəyi nəzərdə tutduğu hələ də aydın deyil. Bununla belə, Rusiyanın müdafiə naziri Andrey Belousov Novaya Zemlyada tammiqyaslı nüvə sınaqlarına hazırlığa başlamağı təklif edib.

Donald Trampın yazısı onun konkret olaraq nüvə partlayışlarının bərpasına və ya nüvə enerjisi ilə işləyən raketlərin sınaq buraxılışlarına işarə edib-etməməsi ilə bağlı aydın deyil. Rusiya Təhlükəsizlik Şurasının direktoru Sergey Narışkin bildirib ki, bir neçə gün əvvəl Rusiyanın ABŞ-dakı səfiri Aleksandr Darçiyev teleqram göndərərək bildirib ki, Rusiya diplomatları prezident Trampın sözlərinə aydınlıq gətirmək üçün Milli Təhlükəsizlik Şurası və Dövlət Departamenti ilə əlaqə saxlayıblar.









Çərşənbə günü ABŞ-ın "Minuteman III" qitələrarası ballistik raketinin sınaq buraxılışını həyata keçirdiyi elan edildi - bu, nüvə qabiliyyətinə malikdir, lakin faydalı yük olmadan buraxılıb. Kaliforniyadakı Vandenberq Hərbi Hava Qüvvələri bazasından verilən məlumata görə, raket Marşal adalarındakı sınaq meydançasına qədər təxminən 4200 mil (6700 kilometr) uçub. ABŞ Rusiya kimi, bu cür atışları müntəzəm olaraq həyata keçirir. Məsələn, 2025-ci ildə amerikalılar 19 fevral və 21 mart tarixlərində qitələrarası ballistik raketlər buraxıblar. Trampın nüvə sınaqlarının bərpası barədə bəyanatından əvvəl Rusiyanın iki yeni nüvə silahı daşıyıcısını - "Burevestnik" qanadlı raketini və sualtı pilotsuz "Poseidon"u sınaqdan keçirməsi olub. Nüvə Sınaqlarının Hərtərəfli Qadağası Müqaviləsi 1996-cı ildən qüvvədədir. Nə ABŞ, nə də Rusiya onu ratifikasiya etməsələr də, 1990-cı illərdən bəri nüvə sınaqları keçirməyiblər. SSRİ son nüvə sınağını 1990-cı ildə, Böyük Britaniya 1991-ci ildə, ABŞ bir il sonra, Fransa və Çin isə 1996-cı ildə həyata keçirib.

### Nüvə müharibəsinə doğru addım

Nüvə sınaqlarının başlanması nüvə müharibəsinə aparan eskalasiya yolunda bir addımdır. Bu, kifayət qədər böyük addımdır, çünki digər ölkələri nüvə sınaqları keçirməyə təhrik edə bilər və bu da öz növbəsində nüvə silahının inkişafını sürətləndirərdi. Hələlik hər iki tərəf barmaqlarını göstərir və digər dövlətlər bunu etmədikcə, öz sınaq meydançalarında nüvə yüklərini partlatmayacaqlarını bəyan edirlər. Amma onlar artıq bir-birindən gizli şəkildə bu testləri hazırlamaqdan şübhələnirlər.

### Coli və nüvə sınaqları

Rusiya prezidenti Vladimir Putin Xarici İşlər Nazirliyinə və təhlükəsizlik orqanlarına 35 illik fasilədə ilk nüvə sınaqlarına hazırlığın mümkünlüyü ilə bağlı təkliflər hazırlamağı tapşırıb. O, bu barədə Kremldə Təhlükəsizlik Şurasının daimi üzvləri ilə keçirdiyi brifinqdə bildirib. Müdafiə naziri Andrey Belousov Arxangelsk vilayətində nüvə sınaqları üçün "dərhal hazırlıqlara başlamaq" təşəbbüsü irəli sürüb. Təhlükəsizlik Şurasının üzvləri ABŞ prezidenti Donald Trampın Pentaqona nüvə sınaqlarını bərpa etmək əmrini bu addımı əsaslandırıblar. Birja artıq Kremlin nüvə açıqlamalarına reaksiya verib. Moskva Birjası İndeksi 35 bənd azalaraq 2541,80 olub.

Ukrayna ordusu Pokrovsk-Myrnohrad aqlomerasiyası daxilində xətti saxlamaqda davam edir. Bu barədə Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahı məlumat yayıb. "Bizim bölmə və birləşmələrimiz mühasirəyə alınmayıb. Pokrovsk şəhərinə soxulub cəmləşməyə cəhd edən düşmənin qarşısını almaq üçün tədbirlər görülür. Düşmənin piyada dəstələrinin mövqelərini möhkəmləndirmək cəhdlərinə qarşı fəal mübarizə davam etdirilir", - məlumatda deyilir. Eyni zamanda, Pokrovsk-Myrnohrad aqlomerasiyasının müdafiəsinin cinahlarının möhkəmləndirilməsi, logistik marşrutların təhlükəsizliyi və mühafizəsi üzrə işlər aparılır.



Amerikalı aktrisa və BMT-nin xoşməramlı səfiri Ancelina Coli gizli şəkildə Xersona səfər edib. Ulduz yerli doğum evinə və uşaq xəstəxanasına baş çəkib. Lakin yolda təhlükəsizlik qüvvələrinin əməkdaşları onun kortejinin sürücüsünü saxlayıblar. Mühafizəçi ilə vəziyyəti həll etmək üçün Coli özü işə qarışıb.

Rusiya Ukraynanın üç bölgəsindəki enerji obyektlərinə zərbələr endirib. Çərşənbə günü gecə Rusiya təcavüzkarları Ukraynanın üç regionunda enerji obyektlərinə hücum ediblər. "Düşmən Donetsk, Sumı və Çerniqov vilayətlərində energetika obyektlərinə zərbələr endirib. Fövqəladə halların bərpası üzrə əməliyyatlar davam edir və energetiklər enerjinin mümkün qədər tez bərpa olunması üçün fasiləsiz işləyirlər", - Energetika Nazirliyi bu gün səhər bildirib.

Ali Rada 13532 saylı qanun layihəsini ikinci oxunuşda və bütövlükdə qəbul edərək, Ukraynada doğuşa görə birdəfəlik müavinəti 50 min qrivenə qədər artırıb. 2026-cı il yanvarın 1-dən etibarən analıq müavinəti 7 min qrivna, doğuşa görə birdəfəlik müavinət isə 50 min qrivna təşkil edəcək.

Kursk vilayətində "İsgəndər" taktiki raket kompleksinin daşıyıcı-yükləyici maşını vurulub. Bu barədə Ukrayna Silahlı Qüvvələrinin Xüsusi Əməliyyat Qüvvələri məlumat yayıb. Bildirilib ki, bu maşın Ukrayna ərazisinə buraxılan raketlərin daşınması, yüklənməsi və buraxılışa hazırlanması üçün istifadə edilib. Xüsusi Əməliyyat Qüvvələri və üsyançı qüvvələr həmçinin 1L122 Qarmon radiolokasiya stansiyasını məhv ediblər. Radar Kursk vilayətinin Nijni Reutets kəndi yaxınlığında növbətçi olub.

Rusiyada iki istilik elektrik stansiyası və neft nasos stansiyasına hücum edilib. Yerli mənbələrin verdiyi məlumata görə, Yaroslavl vilayətində pilotsuz təyyarənin hücumu nəticəsində iki neft nasos stansiyası zədələnib. Mışkinski rayonundakı "Palkino" nasos stansiyası, Rıbinskdəki "Nekouz" nasos stansiyası və "Transneft"ə məxsus bir neçə oxşar obyektin Yaroslavl vilayətində yerləşdiyi məlumdur.

Həmçinin Rusiyanın Oryol şəhərində artıq ikinci dəfədir ki, istilik elektrik stansiyasının yaxınlığında partlayışlar baş verib. Yerli sakinlər hücumun raket hücumu olduğunu deyirlər. Osinter tərəfdarları bu fikri bölüşürlər. Yeri gəlmişkən, Oryol İstilik Elektrik Stansiyası regionda ən böyük enerji və istilik istehsal edən mənbədir. Həm elektrik, həm də istilik verir. Osinters deyir ki, tətil elektrik enerjisinin qəbul edildiyi, paylandığı və zavodun generatorlarından elektrik xətlərinə ötürüldüyü elektrik yarımstansiyasını və ya enerji blokunun açıq qalan hissəsinə dəydi. Bundan sonra şəhər elektrik enerjisini itirdi.

***V.VƏLİYEV***

# “Daha keyfiyyətli, maraqlı və peşəkar verilişlər gözləyirik”



*MEDİA EKSPERTİ DANIŞDI*



”Televiziya və Radio gününün qeyd olunması ictimai rəyə bir daha xatırladır ki, televiziya və radionun cəmiyyətdə mövqeyi, yeri və rolu əhəmiyyətlidir. Artıq yüz ilə yaxın tarixə malik radiomuz, yetmiş ilə yaxın isə televiziya yayımımız var. Bunlar Azərbaycanın mədəniyyətinin, milli düşüncəsinin formalaşmasında və inkişafında mühüm rol oynayıb”. Bu sözləri SİA-ya açıqlamasında media eksperti Qulu Məhərrəmli deyib. O bildirib ki, televiziya və radionun cəmiyyətdəki rolu ilə bağlı müzakirələr, bu vasitələrin yarandığı gündən bəri davam edir: ”Kimisi bu vasitələri əyləncə, kimisi tədqiqat, kimisi isə maarifləndirici mənbə kimi görür. Bu səbəbdən də mübahisələr hələ də qalır. Çünki televiziya sintetik sənət sahəsidir, çoxfunksiyalıdır: həm məlumatlandırır, həm maarifləndirir, həm də əyləndirir. Əgər bu funksiyalardan biri digərlərindən çox üstünlük təşkil edərsə, balans pozular. Verilişlərin proqramlaşdırılmasında bu üç istiqamət - xəbər, maarif və əyləncə mütləq nəzərə alınmalıdır. Əgər televiziyada, məsələn, maarifçilik olmazsa, yalnız danışıq və ya xəbərlə kifayətlənərsə, bu zaman baxış balansı pozular.

Bu gün tamaşaçıların televiziyadan narazılığı da əsasən bununla bağlıdır: ya əyləncə çox olur, ya da keyfiyyətsiz əyləncə təqdim edilir və ya xəbər proqramları aktual olmur. Halbuki televiziya cəmiyyətin maraqlarına xidmət etməli, maarifləndirməli və bir güzgü kimi onu əks etdirməlidir.

Televiziya vitrindir, cəmiyyətdəki ən yaxşı ənənələr, dəyərlər, nümunələr bu vitrində göstərilməlidir. Xəbərlər vasitəsilə ölkə, dünya və cəmiyyət tamaşaçıya təqdim olunmalıdır. Bugünkü informasiya maraqları o qədər geniş və müxtəlifdir ki, bunları əhatə etmək televiziyanın əsas vəzifələrindən biridir. Lakin nəzərə almaq lazımdır ki, 15-20 il öncəki televiziya ilə bugünkü televiziya eyni statusda deyil. Sosial şəbəkələr, internet mediası artıq televiziya üçün ciddi rəqibə çevrilib və bu, böyük rəqabət mühiti yaradır. Bütün bunlar göstərir ki, televiziya indiki şəraitdə fəaliyyətini asanlıqla davam etdirə bilmir. Ona görə də televiziya tamaşaçıya yalnız keyfiyyətli audiovizual materiallar təqdim etməlidir. Əgər cəmiyyətin maraqları, peşəkarlıq təmin olunarsa, tamaşaçı razı qalır. Əks halda isə narazılıqlar qaçılmazdır. Bu baxımdan, Televiziya və Radio Günündə teleradio əməkdaşları bir növ hesabat verir, proqramlarına, yayım strategiyalarına yenidən baxır və tamaşaçı zövqünü oxşamağa çalışırlar. Sonda isə daim ictimai fikrin mərkəzində olan, bəzən sevilən, bəzən tənqid edilən, bəzən də haqsız narazılıqlara tuş gələn teleradio işçilərini peşə bayramları münasibətilə təbrik edirik. Onlardan daha keyfiyyətli, maraqlı və peşəkar verilişlər gözlədiyimizi bildiririk”.

***Səbinə Hüseynli***

# Mərkəzi Gömrük Hospitalında ”Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş tədbir keçirilib

***5 noyabr 2025-ci il tarixində Mərkəzi Gömrük Hospitalında ”Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş tədbir keçirilib. Tədbirdə Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini, t.ü.f.d., dosent İsmayıl Əfəndiyev, Mərkəzi Gömrük Hospitalının rəis müavini Nahidə Mahmudova, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin və Mərkəzi Gömrük Hospitalının əməkdaşları və həkim-rezidentlər iştirak ediblər. Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***








Açılış nitqi ilə çıxış edən Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini, t.ü.f.d., dosent İsmayıl Əfəndiyev bildirib ki, müasir müstəqil Azərbaycanın hüquqi, demokratik və dünyəvi dövlət kimi formalaşması Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti və əvəzsiz xidmətləri nəticəsində mümkün olub. Onun rəhbərliyi ilə hazırlanaraq 1995-ci il noyabrın 12-də ümumxalq referendumu yolu ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizin siyasi, iqtisadi və hüquqi inkişafının əsas bünövrəsini formalaşdırıb.

Rəis müavini İsmayıl Əfəndiyev çıxışında vurğulayıb ki, qəbul edilən Konstitusiya humanizm, ədalət və demokratiya prinsiplərinə əsaslanaraq vətəndaşların hüquq və azadlıqlarının təmin olunmasına, dövlət idarəçiliyinin təkmilləşdirilməsinə və milli-mənəvi dəyərlərin qorunmasına mühüm töhfə verib.

Daha sonra Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Hüquq şöbəsinin inspektoru Səmra Qasımova çıxış edərək Azərbaycan Respublikasının Konstitusiyasının tarixi əhəmiyyəti, formalaşma mərhələləri və müasir dövrdə dövlət idarəçiliyində oynadığı rol barədə məruzə təqdim edib. Tədbir çərçivəsində iştirakçılar arasında müzakirələr aparılıb, Konstitusiyanın əhəmiyyəti, onun cəmiyyət həyatında və dövlət idarəçiliyində rolu barədə fikirlər səsləndirilib.



MƏTANƏT

# Məlumat verən xanımı dinləyin, heç olmasa...

**Bu sağ və sol məsələsi elə bir müşküldür ki, hər gün insanların bu müşküldən nə vaxt xilas olacağı barədə düşünməyə bilmirəm. Çünki hər gün metrodayam, eskalatorda qalxıb-enirəm və sağ-sol məsələsi ilə üzləşirəm.**

Deməli, bu sağ və sol məsələsi üstündə insanlar bir-biri ilə hər gün dalaşır, bir-birilərini təhqir edir, çiyinlərindən vurur ki, yol ver və sair, ilaxır.

Mən də hər gün bu mənzərələri seyr etmək məcburiyyətində qalıram. Çox vaxt gülümsəyirəm, soruşsanız ki, niyə? Cavab verərəm ki, çünki onlar dalaşarkən, bir-birilərini təhqir edərkən, çiyinlərindən vurub ”ay qardaş, ay bacı, yol ver” deyərkən məlumat bürosundan da dayanmadan-durmadan bildirilir ki, eskalatorda sağda dayanın, sol tərəfi keçid üçün boş saxlayın. Bax, buna gülməyib, nə edəsən? Amma özümü tez yığışdırmağa çalışıram ki, kənardan baxanlar deyər ki, bunun başı xarab olub, öz-özünə gülür.

Həqiqətən, maraqlı deyilmi? Sizi bilmirəm, mənə çox maraqlı gəlir. Düşünürəm ki, bədbəxtliyə bax ey, insanların əksəriyyəti kardır. Sonra da düşünürəm ki, İlahi, sən bir gör, nələr yaratmısan? İnsanların əksəriyyəti sağı ilə solunu tanımır.

Sonra nə düşünsəm, yaxşıdır? Heç nə. Bu dəfə görürəm ki, məlumatda bu sağ və sol məsələsi təkrarlanır, bunu eşidə-eşidə yanımdakı yenə də yerindən tərpənib qarşımdakı boş yerə keçmir.

O gün iki qadın ta bir-birilərini rüsvay etdilər. Bilmirəm hansının çantası hansına toxunmuşdu, ya hansı yolu kəsmişdi, o biri keçə bilməmişdi, mən enirdim, onlar qalxırdılar. Ta bir-birilərini biabır etdilər. Amma anlaşılırdı ki, məsələ bu sağ və sol məsələsidir.

Qulaqlarıma dedim ki, tez ol, kar ol, eşitmə. Yan-yörəmdəki kişilərdən xeyli utandım, elə bildim ki, o sözlər mənim ağzımdan çıxdı. Çünki qadınıq axı. Özümüzə də, ətrafımızdakılara da hörmət etmək vacibdir. Elə kişilər də...

Hələ dünən eskalatorda az qalmışdı ki, yıxılam. Gənc bir qız solda dayanmışdı, öz yerində, mən də enirdim, ayağını aralı qoyaraq poz verib şəklini çəkirdi. Necə ilişdimsə ayağına, az qalmışdı üzüaşağı gedəm, özümü birtəhər saxladım. Nə deyərdim, insanın gərək dərrakəsi olsun.

Bəli, neçə vaxtdır bu sağ və sol məsələsini də qələmə almaq istəyirdim, həmin görüntülərdən sonra, dedim, bir qələmi bu məsələyə də toxundurum. Onsuz da bilirəm, camaat Tiktoku, Votsapı, İnstagramı qoyub mənim yazımı oxuyan deyil. Amma jurnalistlər bilər bunu, adam görüb yazmayanda özünə rahatlıq tapa bilmir.

Hə, bu sağ və sol məsələsi belədir ki, bunun bir neçə çarəsi var: ya sağ-solumuzu tanımağa çalışmalı, ya məlumat bürosundakı xanımı dinləməli, ya da bir-birimizi təhqir etməklə, çiyinlərimizi yara etməklə məşğul olmalıyıq.

Mən yazdım, vəzifəmi yerinə yetirdim, qaldı oxucular. Dediyim kimi, sosial şəbəkələrdən vaxt tapıb bizim də saytımıza qonaq gələ bilsəniz, oxuyun, bəlkə sağ və solunuzu tanımaqda bu yazının sizə faydası ola bilər...

# Müharibənin öldürdüyü təbiət, məhv edilən ekosistem

**Müharibələrin, təbii fəlakətlərin, insanın səbəb olduğu bir çox qarşıdurmanın nəticəsində bütün dünyanın yalnız 3 faizi ekoloji cəhətdən toxunulmaz olaraq qalır. Ekoloji cəhətdən bütövlük, sağlam nəsil artıran və heç bir şəkildə müdaxilə edilməmiş yaşayış mühitinə malik bütün heyvan növlərinin mövcudluğu kimi xarakterizə edilir. İnsan faktoru nəticəsində zərər görməyən bu təmiz ərazilər Amazonda, Konqonun tropik meşələrində, Şərqi Sibir və Kanadanın şimalındakı meşə və tundralarda, Mərkəzi Afrikada yerləşir. Araşdırmaya görə, Avstraliyada pişik, tülkü, dovşan, keçi və dəvə kimi invaziv növlərin yerli heyvan növlərinə böyük təsir göstərdiyi ekoloji cəhətdən bütöv ərazi yoxdur.**

2001-ci ildən etibarən BMT Baş Assambleyası 6 Noyabr tarixini Müharibə və silahlı münaqişələr zamanı ətraf mühitin istismarının qarşısının alınması Beynəlxalq Günü elan edib. Bu gün, insanları müharibə və münaqişələrin insan təlafatı ilə yanaşı həm də ətraf mühit üçün yaratdığı təhlükələr barədə məlumatlandırmaq məqsədi daşıyır.









## Müharibədən tək insanlar zərər görmür



Bütün müharibələr insanlar üçün faciəvidir - həm günahsız, həm də günahı olan tərəflər üçün. Müharibələrin insanlar üçün nə qədər dəhşətli nəticələri olduğunu bilirik və bu barədə həmişə danışırıq. Ancaq təəssüf ki, digər fəlakətlər kimi, müharibənin bizdən başqa heyvanlara, ekosistemə və planetə təsirləri də çoxdur və barədə çox az danışılır. Müharibələr təkcə insanları öldürmür, planetdə yaşayan bütün canlıları məhv edir.

Müharibələrin iqlim problemləri ilə birbaşa əlaqəsi var. Müharibələrin iqlim problemlərinə təsirini araşdıran "Münaqişə və Ətraf Mühit Rəsədxanası" qurumunun məqaləsinə əsasən, karbon emissiyalarına birbaşa və dolayısı ilə səbəb olan səbəblər sıralanıb. Bilavasitə təsir edən səbəblər arasında neft anbarları, hasilat sahələri və boru kəmərləri müharibədə ilk hədəf alınan yerlərdən biridir. Bir ölkə başqa bir ölkə ilə müharibə edərkən ilk növbədə neft bazalarına, təbii qaz xətlərinə zərbə endirməsi, orada zəhərli qaz sızması və yanğınlar olması xəbərini çox görmüşük. Bu yanğınlar təbii ki, böyük karbon qazı emissiyalarına səbəb olur.

Həmçinin, bitki örtüyünün və meşələrin yandırılaraq məhv edilməsi, bununla da iqlimə birbaşa təsir edən başqa bir müharibə fəsadıdır. Məsələn, Vyetnam müharibəsi zamanı kimyəvi maddələrdən istifadə edilərək meşələrin məhv edilməsi nəticəsində ümumi meşə sahəsinin 44%-nin məhv edildiyi bildirilirdi. Təbii ki, bu, meşələrdə yaşayan milyonlarla canlının da yox olması deməkdir. Müharibədən sonrakı vəziyyətə nəzər saldıqda, ərazidə idarəetmənin zəifləməsi və iqlim-ətraf mühit ilə əlaqədar görülən tədbirlərin əhəmiyyətini itirməsi səbəbindən daha çox çirkləndirici variantlara əl atıldığını görürük.

Məsələn, Yəmən, Liviya və Suriya kimi münaqişə bölgələrində böyük miqdarda neftin yandırılması nəticəsində CO2-nin atmosferə buraxılması hadisələri var. Ukraynanın müharibə dövründə su qıtlığı səbəbindən ekoloji zərər görməsi halları da istisna deyil. Buna görə də müharibə və qarşıdurmalar həm qısa, həm də uzunmüddətli perspektivdə ekologiyaya, bitki örtüyünə, canlılara müxtəlif növ birbaşa və dolayı ziyan vurur. Müharibədən sonra, xüsusən də dağıdılmış şəhərlərin yenidən qurulması və torpaqlardan istifadənin dəyişməsi səbəbindən ekoloji problemlər davam edir.

## Silah sənayesi təbiəti məhv edir

Başqa bir məsələ də budur ki, silahlanma və müharibə sənayesi hətta sülh dövründə belə planetə ən çox ziyan vuran sahələrdən biridir. Silahların istehsalı zamanı müəssisələrin atmosferə ötürdüyü karbon qazı ciddi problemlərə səbəb olur. Məsələn, bu səbəblə Pentaqon, İsveç, Norveç və Finlandiyadan daha çox karbon qazı buraxır. 2017-2018-ci illərdə Böyük Britaniya ordusunun yaratdığı tullantılar 60 ölkənin ümumi emissiyalarından çox olub. ABŞ ordusu 140 digər ölkənin ordusunun cəmindən daha çox karbon emissiyası istehsal edir. Bundan əlavə, hərbi obyektlərin yerləşdiyi yerlərdə torpaq və içməli su ehtiyatları təhlükəli kimyəvi maddələrlə (arsen, qurğuşun, asbest kimi) zəhərlənir. Bunlar həm insanlar, həm də təbiətdəki digər canlılar üçün böyük risklər yaradır.

Müharibələr tarix boyu biosferi dəyişmək potensialına malik dağıdıcı qüvvə olub. Bu mənfi təsirlər təkcə birbaşa münaqişələr nəticəsində deyil, həm də nüvə silahları, hərbi təlimlər və hərbi sahə ilə əlaqəli çirkləndiricilər kimi baş verir. Məsələn, bomba atıldığı zaman həmin ərazidəki insanlarla bərabər heyvanlar da dəhşətli şəkildə öldürülür, həmçinin yaşayış mühiti dəyişir, atılan bombanın səbəb olduğu kimyəvi çirklənmə, bombanın yaratdığı yüksək desibelli səslər heyvanların ölümlərindən əlavə fizioloji və psixoloji problemlər yaşamasına səbəb olur, biomüxtəlifliyin azalması, növlərin nəslinin kəsilməsi və s. ilə nəticələnir. Dənizdən olan hücumlarda sualtı partlayıcıların istifadə və səs dalğaları dənizin altında yaşayan heyvanların həyatına ciddi təsir edən vəziyyətlərdir. Bu partlayışlar zamanı yaranan təzyiq səbəbindən su altında yaşayan heyvanların ölümünə və ya ciddi zədələnməsinə səbəb olur.

Bununla belə, müharibə zamanı vəhşi təbiətdə qənimət ovuna çıxanlar da az deyil. Məsələn, Mozambikdə baş verən qarşıdurmalar zamanı döyüşən tərəflər zaman-zaman Qoronqosa Milli Parkında qənimət ovuna da çıxaraq buynuzu qiymətli keyvanları öldürərəq buynuzunu qənimət kimi kəsib götürüblər.

## Qarabağdakı minalar nadir heyvan növlərini məhv edir

Qarabağ müharibəsi zamanı ermənilərin Qarabağ ərazisində basdırdıqları çoxsaylı minalara insanlarla bərabər vəhşi təbiətin nadir növdən olan heyvanları da düşür. Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev müharibədən sonra sosial şəbəkədə Laçın rayonunda Ermənistan tərəfinin basdırdığı minanın detonasiyası nəticəsində ölən ayı balasının qalıqlarının görüntülərini də paylaşmışdı. Prezidentin köməkçisi həmin paylaşımda belə yazmışdı:

"Danışan Şəkillər! Azərbaycanın işğaldan azad edilmiş Laçın rayonunda minanın partlaması nəticəsində həlak olan qonur ayı balasının qalıqları. Partlayış sahəsindən toplanmış minaların damğaları onların 2021-ci ildə Ermənistanda istehsal olunduğunu göstərir. Ermənistan Azərbaycanın əvvəllər işğal olunmuş torpaqlarını milyonlarla mina ilə çirkləndirib və bu mina mülki əhalinin, habelə vəhşi heyvanların həyatını təhlükə altına almaqda davam edir".







Rəsmi məlumatlara görə, 2020-ci ildə Ermənistan Respublikasının işğalından azad edilmiş və 2023-cü ildə Ermənistan silahlı qüvvələrinin hərbi birləşmələrinin, terror qruplarının qalıqlarından təmizlənmiş Azərbaycan Respublikasının ərazilərində - Qarabağ və Şərqi Zəngəzurda 1 milyondan çox mina və partlamamış hərbi sursatın mövcud olması ehtimal olunur. Təxminən Livan boyda olan bu ərazi dünyanın mina ilə ən çox çirklənmiş sahələrindən biri hesab olunur.

Qarabağ və Şərqi Zəngəzurda mina qurbanı olan heyvanlar içərisində nəsli kəsilməkdə olan Beynəlxalq Qırmızı Siyahıda olan növlər də var. Ermənistan Respublikası tərəfindən heyvanlara, vəhşi faunaya qarşı sərgilənən bu cür qəddar münasibət yolverilməzdir. Cənubi Qafqaz kimi biomüxtəliflik cəhətdən zəngin bir regionun nadir təbiət inciləri, heyvanları bu cür rəftara məruz qalmamalıdır. Azad edilmiş ərazilərdə ekoloji fəlakət ürək ağrıdır. 30 illik işğal dövründə ərazidə xeyli sayda meşələrin qırılması və ya yandırılması, torpaq və su hövzələrinin qanunsuz dağ-mədən sənayesi işləri nəticəsində kimyəvi cəhətdən çirkləndirilməsi heyvanlara qarşı da kütləvi qırğındır.

***Lalə Mehralı***

# Əli Kərimli müxalifətin üzünü qara edib

Yalan, populist çıxışlar, iddialı və hikkəli fikirlərlə uzağa getmək mümkünsüzdür. Ola bilər ki, bu cür metodlarla gerizəkalı, məram və məqsədlərini anlamayan bir qrupu yoldan çıxarmaq və özünün məkrli planlarına alət etmək olar. Ancaq belə vasitə ilə davamlı fəaliyyət göstərmək çətindir. Daha doğrusu, "oğurluqla pis yol tutanın ömrü 40 gün çəkər" məsəlinə uyğun olaraq yalan və populist fikirlərlə mövqe sahibi olacaqlarını, geniş dəstək qazana biləcəklərinin də xəyalları 40 gün çəkir. Elə götürək dağıdıcı müxalifət düşərgəsində təmsil olunan Əli Kərimli, Arif Hacılı, İsa Qəmbər, Cəmil Həsənli və bu kimi digər partiya mənsublarının yalan və populizm üzərində qurulan fəaliyyətlərini. Bu məxluqlar siyasi fəaliyyətləri dönəmində düz danışmaq, ədalətli mövqe sərgiləmək, səmimi olmaq, haqqı və ədalətin yanında olmaq kimi insani prinsiplərdən və qaydalardan uzaq olublar. Onlarınkı ancaq dövlətə qarşı əsassız ittihamlar səsləndirmək, xalqını sevən, dövlətinə bağlı olan şəxsləri jantaj etmək, haqlarında böhtanlarla çıxış etmək olub. Ona görə də, siyasi uğur qazanmaq baxımından nəticə əldə edə bilməyiblər. Bu gün də onlar Azərbaycan müxalifətinin qara ləkəsi hesab edilirlər və əqidə dostları, məslək yoldaşları hesab etdikləri şəxslər tərəfindən belə tənqid olunurlar. Əli Kərimlinin partiyadaşları tərəfindən sərt şəkildə tənqid olunması, hətta məhkəməyə verilməsi qeyd olunanlara misal ola bilər.



Təbii ki, müxalif partiya sədrlərinin səhv, yanlış siyasət aparmalarından ən çox əziyyəti sıravi üzvlər, xüsusilə də partiyaların özləri çəkirlər. Ə.Kərimliyə qarşı partiyadaşının irəli sürdüyü ittihamdan yalnız Ə.Kərimli zərər görmür, zatən o, bu kimi tənqidlərə və ittihamlara öyrəncəlidir, daha çox zərbənin AXCP aldığı desək səhv etmərik. Çünki Ə.Kərimlinin ağılsız siyasəti səbəbindən AXCP ictimai siyasi proseslərdən kənarda qalır, cəmiyyətin qınaq obyektinə çevrilir, üzvləri sərt tənqidlərə məruz qalır. Parçalanmaların, qopmaların yaranmasının da səbəbi Ə.Kərimlinin fars-molla rejiminin düşüncəsiz mollalarısayağı fəaliyyət yolu tutmasından qaynaqlanır. Elə cəbhəçilər də var ki, istefa vermək haqqında düşünmür, əksinə Ə.Kərimli ilə məhkəmə çəkişməsinə girərək hüquqlarının müdafiəsi uğrunda mübarizə aparır. Hətta AXCP Nəzarət Təftiş Komissiyasının sədri olmuş, daha sonra partiya sıralarından xaric edilən Əliyev Aydın Sədədqulu oğlu Əli Kərimlinin Cinayət Məcəlləsinin 147-ci (böhtan) və 148-ci (təhqir) maddələri ilə məsuliyyətə cəlb edilməsi üçün Nəsimi rayon Məhkəməsinə müraciət edib. Nəsimi rayon Məhkəməsində AXCP sədri Əli Kərimli barəsində xüsusi ittiham qaydasında cinayət işinin başlanması üçün şikayətə baxılıb. Aydın Əliyev bildirib ki, Əli Kərimli müxtəlif internet kanallarında, AXCP Ali Məclisinin toplantısında onun etibarını itirdiyini, hökumətpərəst siyasətinə görə partiyadan xaric edildiyini, daha sonra hakimiyyətin məhkəmələrin əli ilə onu zorla partiyaya bərpa etdirdiyini deyib: "Əli Kərimli onu da bildirib ki, hakimiyyət Aydın Əliyevin vasitəsilə - onun məhkəmədə qaldırdığı iddia əsasında AXCP-nin keçirdiyi qurultayın nəticələrini ləğv elətdirib. Ə.Kərimli ona böhtan atmaqla şərəf və ləyaqətimi təhqir edib".

A.Əliyev haqlıdır və gözləmək olardı ki, məhkəmə onun iddiasını təmin edəcək. Lakin bu, baş vermədi. Hakim növbəti dəfə humanistlik göstərən qərarı elan etdi. Bu isə hesab etmək olar ki, cəzadan da ağır və sərtdir. Nəzərə almaq lazımdır ki, AXCP-nin 2023-cü iyulun 5-də keçirildiyi iddia olunan qurultayının nəticələri Ədliyyə Nazirliyi reyestrə salınmasından imtina edib. Buna səbəb kimi AXCP Nəzarət-Təftiş Komissiyasının sədri Aydın Əliyevin qurultayın qərarlarının tanınmaması barədə məhkəməyə müraciət etməsi göstərilib. Aydın Əliyev bildirib ki, ona Nəzarət-Təftiş Komissiyasının sədri kimi partiyanın şəhər və rayon təşkilatlarının konfranslarında iştirak etmək istəyimə baxmayaraq imkan verməyiblər və partiya sənədləri ilə tanış olmaqdan kənarlaşdırıblar. Bu səbəblərdən AXCP-nin qurultayının nəticələrinin etibarsız hesab edilməsi barədə "Siyasi Partiyalar haqqında" qanunun 21.5 uyğun olaraq 8 avqust 2023-cü ildə Nəsimi rayon Məhkəməsinə müraciət etmişəm. Bir ilə yaxın çəkən məhkəmə çəkişməsindən sonra məhkəmə mənim iddia ərizəmi təmin edib, qurultayın nəticələrinin etibarsız hesab edilməsi barədə qətnamə qəbul edib. Məhkəmənin qətnaməsi məni qane edir. Qətnamənin yerinə yetirilməsi üçün sonadək mübarizə aparacam".

Bütün bu və digər amillər təsdiq edir ki, AXCP Ə.Kərimlinin yanlış siyasət aparması səbəbindən parçalanma mərhələsini başa vurub, dağılma dövrünə adlayır. Vəziyyətin aradan qaldırılması, problemin həll edilməsi isə mümkünsüz görünür. Çünki Ə.Kərimli AXCP sədrliyində qalmaqda israr edir. Həm də o hüququn aliliyinə qarşı hörmətsiz davranış nümayiş etdirir. Bu isə daxildə əlavə problemlərin yaranmasına gətirib çıxarır ki, bu problemlərin də həll edilməsi mümkün deyil. Yalnız bir halda AXCP mövcudluğunu qoruyub saxlaya, hətta normal inkişafını təmin edə bilər. O da Ə.Kərimlinin sədrlikdən getməsidir. Əks halda AXCP tarixin arxivinə göndəriləcək.

***İLHAM ƏLİYEV***

# Hiperaktiv uşaq - fərqli, yoxsa problemli?

***Müasir dövrdə valideynlər və müəllimlər arasında tez-tez rast gəlinən anlayışlardan biri "hiperaktiv uşaq" ifadəsidir. Çox zaman bu termin hərəkətli, danışqan, yerində dura bilməyən uşaqlara şamil edilir. Lakin hiperaktivlik sadəcə enerjinin çoxluğu və ya uşağın "çox hərəkətli" olması ilə məhdudlaşmır. Bu hal bəzi uşaqlarda diqqət çatışmazlığı və davranış problemləri ilə birgə müşahidə oluna bilər və bu zaman "Diqqət çatışmazlığı və hiperaktivlik pozuntusu" (DÇHP - Attention Deficit Hyperactivity Disorder, ADHD) kimi tanınan psixoloji vəziyyətdən danışmaq olar.***



## Bəs, hiperaktivlik nədir?

Hiperaktivlik uşağın yaşına uyğun olmayan dərəcədə hərəkətli, impulsiv və diqqətsiz davranması ilə xarakterizə olunur. Bu vəziyyət genetik, bioloji və ətraf mühit amillərinin birgə təsiri nəticəsində yaranır. Elmi tədqiqatlara görə, DÇHP-nin əsas səbəbləri bunlardır:

Beyində dopamin və norepinefrin kimi neyrotransmitterlərin balanssızlığı;
Genetik meyllilik (ailədə oxşar hallar varsa, risk artır);
Hamiləlik dövründə stress, siqaret və spirt qəbulu;
Uşağın psixososial mühitində daimi gərginlik və qeyri-sabitlik.

## Cəmiyyətin hiperaktiv uşağa münasibəti necədir?

Cəmiyyət çox zaman hiperaktiv uşağı "tərbiyəsiz", "dinləməyən" və ya "problematik" kimi qiymətləndirir. Bu yanlış təsəvvür həm uşağın özünə inamını sarsıdır, həm də ailə üzərində psixoloji təzyiq yaradır. Halbuki, hiperaktiv uşaq "problemi olan" yox, fərqli öyrənmə və davranış xüsusiyyətlərinə malik uşaqdır.

## Bəs, valideynin münasibəti necə olmalıdır?

Valideynlər bəzən uşağın davranışlarını yanlış qiymətləndirərək, cəza və qadağalarla "sakitləşdirməyə" çalışırlar. Halbuki hiperaktiv uşağa qarşı ən effektiv üsullar bunlardır:
Səbirli və ardıcıl davranış;
Qaydaların sadə və aydın izahı;
Mükafat sisteminin tətbiqi;
Uşağın maraqlarına uyğun fəaliyyətlərin təşkili.

## Müəllim və məktəbin rolu nədən ibarətdir?

Təəssüf ki, bir çox məktəbdə hiperaktiv uşaqlar "sinfi qarışdıran", "diqqəti yayındıran" kimi qəbul edilir. Halbuki, fərdi yanaşma və xüsusi tədris metodları ilə bu uşaqların potensialını açmaq mümkündür. Məsələn:

Dərs zamanı qısa fasilələr vermək;
Tapşırıqları mərhələli şəkildə bölmək;
Uşağın diqqətini cəlb edən interaktiv metodlardan istifadə etmək;
Kiçik nailiyyətləri belə təqdir etmək.

Hiperaktiv uşaqların üstün cəhətləri nələrdir?
Hiperaktivlik bəzən mənfi yox, fərqli beyin fəaliyyətinin göstəricisidir. Bu uşaqlar çox vaxt:
Yaradıcı düşüncəyə malik olurlar;
Risk almağa və yenilik axtarmağa meyillidirlər;
Güclü enerji və liderlik potensialı daşıyırlar;
Sürətli düşünmə qabiliyyəti sayəsində problem həllində fərqli yanaşmalar göstərə bilirlər.

Məsələn, tarixdə bir çox uğurlu şəxsiyyət - Tomas Edison, Albert Eynşteyn, Jim Carrey kimi insanlar uşaqlıqda hiperaktiv davranışlar göstərmiş, lakin sonradan bu enerjini yaradıcılığa yönəldə bilmişlər.

## Hiperaktiv uşaqlarla işləmə üsulları

Strukturlaşdırılmış rejim yaradın: Uşaqlar sabit rejimdə özlərini daha təhlükəsiz hiss edirlər. Qısa və konkret tapşırıqlar verin: Uzun və qarışıq təlimatlar diqqət dağınıqlığını artırır.

Hərəkətə imkan yaradın: Fasilələrdə idman, rəqs və ya açıq hava fəaliyyəti enerjini boşaltmağa kömək edir.

Müsbət gücləndirmə: Tənqid yox, tərif motivasiyanı artırır.

Peşəkar yardım: Psixoloq, psixiatr və ya defektoloqla əməkdaşlıq vacibdir.

## Psixoloji və sosial dəstəyin əhəmiyyəti

Hiperaktiv uşaq təkcə fərqli deyil, həm də cəmiyyətin xüsusi diqqətinə ehtiyacı olan bir fərddir. Ailənin, məktəbin və mütəxəssislərin birgə fəaliyyəti uşağın sosial adaptasiyasını asanlaşdırır, özünəinamını gücləndirir.

Bu cür uşaqlara münasibətdə əsas məqsəd - onları "normal" hala gətirmək deyil, fərqliliklərini düzgün istiqamətləndirmək olmalıdır. Beləliklə, "hiperaktiv uşaq" anlayışı "problemli uşaq" anlamına gəlmir. Hiperaktivlik bir çox hallarda fərqli düşüncə, enerji və potensialın ifadəsidir. Əgər bu fərqlilik düzgün yönləndirilərsə, uşaq gələcəkdə cəmiyyətə dəyər qatan yaradıcı, təşəbbüskar və bacarıqlı bir fərd kimi yetişə bilər. Əsas məsələ uşağı dəyişdirmək deyil, onu anlamaq və dəstəkləməkdir.

***Arzu Qurbanlı***

# ”Avrasiya kanalı” Qara dəniz və Xəzər regionu üçün nə vəd edir?

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi” istiqaməti çərçivəsində hazırlanıb.*

Təxminən 2022-ci ilin ortalarından Rusiya və bir sıra qonşu ölkələrin mediasında 750 km uzunluğunda olan Avrasiya gəmiçilik kanalının (Xəzər dənizi - Manyç gölü - Azov - Qara dəniz hövzəsi) vacibliyi və ona ehtiyacın getdikcə artması haqda müzakirələr gedir və təkliflər dərc olunur. Bir sıra sənaye və nəqliyyat ekspertlərinin bu arteriyanın həm tikintisinin, həm də istifadəsinin regional ekologiyaya vura biləcəyi ziyanı və iqtisadi səmərəsizliyi haqda fikirlər səsləndirməsinə baxmayaraq bu layihəyə maraq artır. Bəs bu nəhəng







iqtisadi və nəqliyyat layihəsi iqtisadi və ekoloji baxımdan nə dərəcədə faydalı və ya zərərli ola bilər? Region ölkələri üçün bunun hansı müsbət və mənfi təsirləri ola bilər? Bu məqamlara aydınlıq gətirməyə çalışaq.



### ”Avrasiya” kanalı Xəzər-Azov-Qara dəniz hövzəsini necə birləşdirəcək?

Xəzərdən Qara dənizə birbaşa və daha genişhəcmli çıxış iqtisadi və ticari cəhətdən çox cəlbedici görünür. Mövcud alternativin (Volqa-Don kanalının) imkanlarının aşağı olması bu layihəni daha da aktuallaşdırır və müzakirələr genişlənir.

”Dagestanskaya Pravda” mövqu ilə bağlı yazır: ”Avrasiya kanalı Şimal-Cənub dəhlizi boyunca ticarət axınını əhəmiyyətli dərəcədə yüngülləşdirməyə qadirdir. Son vaxtlar layihəyə diqqət artır”.

Bəs bu kanalın səmərəliliyi necə ola bilər? Qəzet qeyd edir ki,”belə irimiqyaslı ideyalar üçün qoyulmuş investisiyanın geri qaytarılma müddəti 15 il və ya daha çox ola bilər. Amma bunun geosiyasi faydaları da var və onlar həmişə mühasibat rəqəmlərində əks oluna bilməz”. Nəşr ekspert rəylərinə istinad edir.

”İran Rusiyanın layihə ilə bağlı qərarını 8 ildən çox gözlədi. Sonra gözləməkdən yorulub 2019-cu ildə onlar öz ərazilərindən keçərək Xəzər dənizi ilə Fars körfəzini birləşdirən gəmi kanalının tikintisinə başladılar”,- ”Rodina” Sənayeçilər və Sahibkarlar Korporasiyasının prezidenti Hacı Hacıyev qəzetə bildirib.

Bəs Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhizindən ticarət axınları hansı istiqamətlərə daha geniş həcmlə təşkil oluna bilər? Layihənin əsasını Rostov vilayətindəki Azov hövzəsinin limanları və Krasnodar diyarının qonşu (şimal) bölgəsi təşkil edir. Daha sonra Qara dəniz boğazlarına, daha sonra Süveyş və Qırmızı dəniz vasitəsilə Yaxın Şərqə və Cənubi Asiyaya trans-Qara dəniz yolu gəlir. Bu, ümumiyyətlə Şimal-Cənub marşrutlarından daha uzundur.

”Qruziya i mir” (Gürcüstan və dünya) portalı bununla bağlı yazır: ”Rusiya Qara dənizdən Xəzərə qədər möhtəşəm Avrasiya kanalı layihəsini açmağa hazırdır”. Üstəlik, bunun ”İran və Qazaxıstan üçün xilasa” çevriləcəyi də qeyd edilir. İddia olunurb ki, Tehran və Astana bu kanalla ixrac-idxal daşımalarından faydalanacağını düşünür.

Portal layihənin dəyəri ilə bağlı belə yazır: ”500 milyard rubl (təxm.-10 milyard manat- E.B) investisiya o qədər də ağlasığmaz məbləğ deyil, üstəlik özəl investorlar da cəlb oluna bilər. Rusiya onlarla belə layihələr həyata keçirir, bəziləri 1 trilyon rubla qədərdir. Özünü qaytarma müddəti ən azı 11 il qiymətləndirilir”.

İddia edilir ki, Panamaks kimi eni 30 metrdən çox və 5000 konteyner tutumlu böyük konteyner gəmiləri bu kanalda hərəkət edə bilər. Portal vurğulayır ki, xarici investorlar layihədə maraqlıdır: yalnız siyasi qərarın qəbulu qalır.

### Sovet layihəsi 100 il sonra həyata keçirilə bilər

Avropa ilə Asiya arasındakı sərhəd Ural dağlarının ətəyi və Kuma-Manıç çökəkliyi boyunca keçir. Məhz burada, hələ 20-ci əsrin əvvəllərində, Manyç Kanalının inşası planlaşdırılırdı, çünki keçmişdə dənizlər çökəklik vasitəsilə geoloji cəhətdən bir-birinə bağlanmışdı- sonuncu dəfə bu, təxminən 15.000 il əvvəl baş vermişdi.

Kanalın tikintisi planı 1924-cü ildə Sovet mühəndisi Filipp MorQunenkov tərəfindən təklif edilmişdir. Onun planına görə, çökəkliyin mərkəzində nəhəng su anbarı yaradılmalı və sonra qalan işlər hər iki istiqamətdə aparılmalı idi. 1933-cü ilə qədər plan artıq bir layihə halına gəldi, bunun üçün xüsusi bir büro, Manyç Kanalının Dizayn və Tikinti İdarəsi təyin edildi.

Bu kanalın tikintisi 2 mərhələdə nəzərdə tutulmuşdu. Birincisi, Don-dan Divnoye və daha sonra Xəzər dənizinə çay marşrutunun tikintisi ilə bağlı idi.

İkinci mərhələdə çay marşrutu sadəcə olaraq genişləndirildi, tədricən gəmiçilik üçün dəniz yoluna çevrildi. Kanalın dərinliyi 7 metrdən çox olmalı idi. Hövzədə bir sıra bəndlərin tikintisinə 1938-ci ildə başlanılıb. Böyük Vətən Müharibəsinin başlaması səbəbindən qısa müddət sonra layihə tamamlanmadı. Daha ucuz və rahat başa gələn başqa bir variant- Volqa-Don kanalı seçildi. Volqa-Don kanalı 1952-ci ildə tikilib və o zaman Avrasiya kanalına ucuz alternativə çevrilib. Bununla belə, o, çox kiçikdir: illik ötürmə qabiliyyəti 16,5 milyon tona qədər, oradan keçə bilən gəmilərin yük qabiliyyəti isə 7 min tona qədərdir.

”Avrasiya” layihəsi əsasən Manyç kanalının dizaynına uyğundur. Avrasiya kanalinin yükötürmə qabiliyyəti ildə 45 milyon ton, yükgötürmə qabiliyyəti 20 min tondan çox olan gəmilərlə təmin ediləcək. Kanalın uzunluğu təxminən 650-800 km olacaq. Rusiya bu ideyanı həyata keçirə bilər, xüsusən ona görə ki, lazımi infrastruktur artıq mövcuddur.

Sovet İttifaqı Xəzər hövzəsindəki Kuma çayını Xəzər dənizi yaxınlığında quruyan Şərqi Manyç çayı ilə birləşdirən Kuma-Manıç kanalını tikdi. Bu, artıq gələcək Avrasiya kanalının mühüm hissəsidir. Hətta bu möhtəşəm kanalın layihəsi də hazırdır. Beləliklə, heç bir məhdudiyyət yoxdur.

### Avrasiya kanalı hansı dividentlər vəd edir?

2009-2010-cu illərdə Avropa Yenidənqurma və İnkişaf Bankı Avrasiya kanalının texniki-iqtisadi əsaslandırmasını apardı, lakin nəticələr ictimaiyyətə açıqlanmadı. Qazaxstan Elmlər Akademiyasının akademiki Nuralı Bekturqanov Kazinform-a müsahibəsində qeyd edib ki, kanal yeni qlobal ticarət sistemi üçün aşağıdakı strateji əhəmiyyətə malikdir:

-okeana çıxışı olmayan Mərkəzi Asiya dövlətlərinin (Qazaxıstan və Türkmənistan) Qara dənizə və onun hüdudlarından kənara birbaşa dəniz çıxışı;

-Rusiya, Çin və İranı cəlb etməklə ticarət şəbəkəsinin imkanlarını artırmaq üçün Orta Dəhlizin nəqliyyat imkanlarının genişləndirilməsi;

-Avropa və Türkiyəyə ixrac marşrutlarının gücləndirilməsi;

- Hindistan-Yaxın Şərq-Avropa İqtisadi Dəhlizinə (IMEC) və digər nəqliyyat təşəbbüslərinə (Üç Dəniz Təşəbbüsü - 3SI) infrastrukturun inteqrasiyası imkanı.

Ekspertin fikrincə, Kuma-Manıç çökəkliyinin topoqrafiyası kanal tikintisi üçün əlverişlidir. Xəzər dənizi Qara dəniz və Azov dənizindən 27 metr aşağıdır. Müqayisə üçün deyək ki, Volqa-Don kanalı Volqa və Don çayları arasında 120 metr, Müqəddəs Lourens dənizində (ABŞ Böyük Gölləri arasında) isə 170 metr fərq var.

Əksər ekspertlər hesab edirlər ki, Avrasiya kanalına ehtiyac çox böyükdür. Rusiyanın və digər Xəzəryanı ölkələrin Xəzər və Qara dənizləri arasında öz gəmilərini daha tez vaxtda keçirmək üçün bu daha üstün variant ola bilər. Üstəlik, yükgötürmə qabiliyyəti dəfələrlə daha böyük olan gəmiləri.

Avrasiya kanalı ”Seawaymax” və ya ”Handysize” sinfi adlanan dedveyti 26 000 tona qədər olan gəmiləri qəbul edə bilən həcmdə tikilməlidir. Hazırda Xəzər dənizinin sularında yükgötürmə qabiliyyəti 10-13 min tondan çox olmayan çay-dəniz gəmiləri hərəkət edir. Bununla belə, yükgötürmə qabiliyyəti 5000 tondan çox olan gəmilər Volqa-Don kanalından istifadə edə bilmirlər. Amma Qara dənizdə yükgötürmə qabiliyyəti 100 min tona qədər olan gəmilər işləyir.

### Sahilyanı ölkələr üçün perspektivli dəniz dəhlizi

Qeyd edək ki, layihə ilə bağlı yüksək səviyyələrdə də fikirlər səsləndirilir. 2007-ci ildə Qazaxıstan prezidenti Nursultan Nazarbayev Sankt-Peterburq Beynəlxalq Forumunda bu mövzuda fikirlərini açıqladı: ”Mərkəzi Asiya regionu, Xəzər dənizi regionu enerji resursları ilə zəngindir, lakin bu resurslar qlobal bazarlara çatdırılmalıdır, ona görə də bizə müxtəlif marşrutlar lazımdır. Bu baxımdan, mən Avrasiya kanalının tikintisini mühüm layihə hesab edirəm və bu, bütün Mərkəzi Asiyanın Rusiya vasitəsilə dənizlərə çıxışı üçün güclü dəhlizə çevriləcək”.

Bəzi ekspertlər düşünür ki, bu kanal Süveyş kanalı ilə rəqabət apara və Çin üçün əsas logistika marşrutuna çevrilə bilər. Qazaxıstan isə Avrasiya kanalı ilə birbaşa neft ixrac edə bilər, həmçinin Pekindən bu daşımalar üçün tranzit haqqı ala bilər.

Çin və İran layihəyə maraq göstərir. Çinlilər öz mallarının qlobal bazarda qazancını maksimuma çatdırmaq istəyir, sanksiyaya məruz qalan Tehran isə neft ixracı üçün sabit logistika marşrutuna ehtiyac duyur.

Azərbaycan və Türkmənistan üçün də bu daha böyük, daha sürətli və daha ucuz ticarət imkanları deməkdir. Qara dəniz ölkələri və digərləri üçün də bu, Xəzər hövzəsinə eyni imkanlarla çıxış deməkdir.

Ümumiyyətlə, belə bir kanalın yaradılması region ölkələrinə böyük iqtisadi dividentlər vəd edir. Belə ki, Azərbaycan, Rusiya, Qazaxstan, İran, Türkmənistan kimi Xəzəryanı ölkələr daha böyük gəmirlərlə Qara dəniz vasitəsilə Avropa ölkələrinə və dünya okeanına daha rahat və daha tez çıxış əldə edir, eyni zamanda Qara dəniz ölkələri və digərləri və Xəzəryanı ölkələrə və onların vasitəsilə Şərq və cənub ölkələrinə daha rahat çıxış əldə edə bilər. Layihənin düzgün həyata keçirilməsi ilə ekoloji təsirlərin də minimuma endirilməsi təmin oluna bilər.

**Elçin Bayramlı**

SON SƏHİFƏ
SƏS
7 noyabr
2025-ci il


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Universitetlərdə hansı yeni ixtisaslar yaradılmalıdır?

*TƏHSİL EKSPERTİ AÇIQLADI*





"Əmək bazarının tələbinə uyğun ixtisasların formalaşdırılması bu gün Azərbaycanın təhsil sisteminin qarşısında duran ən vacib məsələlərdən biridir. Hazırda ölkəmizdə 51 ali təhsil müəssisəsi fəaliyyət göstərir və onlardan 7-si hərbiləşmiş universitetlərdir. Lakin bu hərbi təhsil müəssisələrini kənara qoyduqda, qalan universitetlərdə tədris olunan ixtisasların böyük bir hissəsinin əmək bazarının real tələbatını ödəmədiyini görmək mümkündür". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Məzahir Məmmədli deyib.

Onun sözlərinə görə, universitetlərdə hazırlanan kadrlar çox zaman müasir iqtisadiyyatın, texnologiyanın və sənayenin ehtiyaclarına cavab vermir: "Əslində, bu gün əsas hədəf həm tədris prosesini, həm də ixtisas seçimlərini əmək bazarının real ehtiyacları ilə uzlaşdırmaq olmalıdır. Biz artıq 21-ci əsrin texnoloji inqilab dövründə yaşayırıq və bu dövrün çağırışları da tamamilə fərqlidir. Süni intellektin, avtomatlaşdırmanın, kibertəhlükəsizliyin, məlumat elminin və etik idarəetmənin sürətli inkişafı bütün dünyada yeni peşə və ixtisas sahələrinin yaranmasına səbəb olub. Buna uyğun olaraq, təhsil sistemi də çevik şəkildə bu dəyişikliklərə reaksiya verməli, gələcəyin bacarıqlarını tələb edən istiqamətlər üzrə mütəxəssislər yetişdirməlidir. Bu baxımdan, süni intellekt mühəndisliyi, proqramlaşdırma, robot texnikası, data analitikası, kibertəhlükəsizlik, rəqəmsal marketinq, bioinformatika, texnoloji etik idarəetmə kimi ixtisasların sayının artırılması vacibdir. Eyni zamanda, ənənəvi ixtisasların da yenilənməsi, onların məzmununa rəqəmsal bacarıqların, innovativ düşüncə tərzinin və yaradıcı problemlərin həlli bacarıqlarının inteqrasiyası zəruridir.

Əgər biz təhsil sistemimizi əmək bazarının real tələblərinə uyğunlaşdırmasaq, gənclərimiz universiteti bitirdikdən sonra iş tapmaqda çətinlik çəkəcək, bazar isə ehtiyacı olan müasir bilik və bacarıqlara malik kadr çatışmazlığı ilə üzləşəcək. Bu səbəbdən, təhsil siyasəti uzunmüddətli strateji planlaşdırmaya əsaslanmalı, dövlət, özəl sektor və universitetlər arasında əməkdaşlıq gücləndirilməlidir. 21-ci əsrin tələblərinə cavab verən bir təhsil sistemi qurmaq, yalnız müasir texnologiya və süni intellektlə bağlı ixtisaslar yaratmaqla deyil, həm də bu ixtisasların praktik yönümlü, innovativ və yaradıcı məzmunla zənginləşdirilməsi ilə mümkündür. Belə olduğu halda, Azərbaycan gəncləri qlobal əmək bazarında rəqabətədavamlı olacaq və ölkənin texnoloji inkişafına əhəmiyyətli töhfə verə biləcəklər".

*Arzu Qurbanlı*

# Azərbaycan derbisi bu hakimə tapşırıldı!




Futbol üzrə Misli Premyer Liqasında "Zəfər turu"nun təyinatları açıqlanıb. SİA Peşəkar Futbol Liqasının rəsmi saytına istinadən xəbər verir ki, "Qarabağ" və "Neftçi" komandaları arasında keçiriləcək turun mərkəzi qarşılaşması FIFA referisi Elçin Məsiyevə həvalə olunub. Digər FIFA referisi Əliyar Ağayev isə "Zirə" - "Turan Tovuz" matçında ədaləti qoruyacaq.

# "Bu məhsulların arxasında bir marketinq oyunu dayanır"



"Ümumiyyətlə, son illərdə marketlərdə "az yağlı", "dietik" adı altında saysız məhsulların satışı təşkil olunur". Bu sözləri SİA-ya açıqlamasında qida eksperti İlkin Şirinov bildirib. Onun sözlərinə görə, amma bu məhsulların arxasında bir marketinq oyunu dayanır: "İnsanların təfəkküründə yağ bir "düşmən obrazı" kimi təqdim olunub sanki yağ bizə zərərdir. Bu fikrin yayılmasının arxasında ticarət maraqları durur. Nəzərə alsaq ki, beynimiz, gözümüz, dərimiz yəni bədənimizin əsas orqanları yağla işləyir, bu demonizasiya düzgün deyil. "Az yağlı", "dietik" sözlərini sağlamlıq simvoluna çevirmişlər. Halbuki bu, qəsdən yaradılmış psixoloji manipulyasiyadır. İnsanların xəstələnmək, kökəlmək, yaşlanmaq qorxularından istifadə olunur.

Bəli, yağdan normada istifadə vacibdir. Amma gəlin bu "az yağlılıq" anlayışını bir az araşdıraq. Dad məsələsi bu məhsullarda yox olur. Yağ çıxarıldıqdan sonra həmin məhsullar süni dadlandırıcılar, qalınlaşdırıcılar, karbohidratlar və emulsifikatorlarla doldurulur. Nəticədə, sağlamlıq görüntüsü altında təhlükəli maddələr yaranır. Az yağlı məhsullar elə təqdim olunur ki, guya bu daha "təmiz", "vicdanlı" seçimdir. Amma bu, yalnız reklam mexanizminin yaratdığı illüziyadır. İnsanlar bu şəkildə yönləndirilir ki, guya sağlamlıq üçün belə daha yaxşıdır. Əslində isə bu, istehsalçının biznes maraqları üçün qurulmuş oyundur.

Məhsuldan yağ çıxarılanda saxlama müddəti azalır, dad və keyfiyyət pozulur. Bunun yerinə dadı bərpa etmək üçün daha çox kimyəvi maddələr - süni dadlandırıcılar, qatılaşdırıcılar, modifikasiya olunmuş nişasta və s. əlavə olunur. Bu da bədəni deyil, istehsalçının gəlirini qoruyur. Az yağlı məhsulların əvəzinə bəzən daha çox şəkər və nişasta əlavə olunur ki, bu da sağlamlıq üçün təhlükəlidir. Bol şəkərli məhsullar qəbul edildikdə bədəndə şəkər yüklənməsi və insulin direnci yaranır. Nəticədə isə sağlamlıq zərər görür. Beləliklə, "dietik" və "az yağlı" adı altında təqdim olunan məhsullar heç də həmişə sağlam deyil. Onlar insanlara faydalı kimi sırınsa da, əslində çox vaxt təhlükəlidir".

*Günel Fərzəliyeva*

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3000**